
Бүтүн өлкәләрин пролетарлары, бирләшин!

Азәрбајчан кәнчләри

1919-чу ил октјабрын 27-дән чыхыр

АЗӘРБАЈЧАН ЛКИИ МК-нын ОРГАНЫ • «АЗЕРБАЙДЖАН ГЯНДЖЛЯРИ»—ОРГАН ЦК ЛКСМ АЗЕРБАЙДЖАНА

№ 137 (10756) ЧҮМӘ АХШАМЫ, 17 НОЈАБР 1988-чи ИЛ. Гијмәти 3 гәпик.



«БУРАН» ОРБИТ КӘМИСИ УЧУШДА

СИТА-нын МӘ'ЛУМАТЫ

1988-чи ил нојабрын 15-дә Москва вахты илә саат 6-да Совет Иттифагында «Енеркија» универсал космик-ракет неглијјат системи илә дәфәләрлә истифадә едилән «Буран» кәмиси бурахылмышдыр. Саат 6.47 дәгигәдә орбит кәмиси нәзәрдә тутулан орбитә чыхмышдыр.

Сынаглар програмында орбит кәмисинин Јер әтрафында ики дәфә дөврә вуруб Москва вахты илә саат 9.25 дәгигәдә автомат режимдә Бајконур космодромуна енмәси нәзәрдә тутулмушдур.

УЧУШ БАША ЧАТМЫШДЫР

СИТА-нын МӘ'ЛУМАТЫ

1988-чи ил нојабрын 15-дә Москва вахты илә саат 9.25 дәгигәдә «Буран» орбит кәмиси Јерәтрафы орбитдә икидөврәли учушу јеринә јетирәрәк, Бајконур космодромунун енмә золағында Јерә енмишдир.

Дүнјада илк дәфә олараг кәми автомат режимдә Јерә ендирилмишдир. «Енеркија» универсал ракет-космик неглијјат системинин вә дәфәләрлә истифадә едилә билән «Буран» орбит кәмисинин сынаг бурахылышы програмы тамамилә јеринә јетирилмишдир.

КӘНДДӘ СОСИАЛ ИНКИШАФЫ СҮР'ӘТЛӘНДИРМӘЛИ

ОРЈОЛ, 14 нојабр (СИТА). Бу күн бурада ачылмыш мүшавирәдә јенидәнгурманын индики мәрһәләсинин вә ән әввәл әһалинин әрзаг тәчһизатыны јахшылашдырмаг һаггында XIX Үмумиттифаг партија конфрансы гәрарларынын јеринә јетирилмәсинин партија-сијаси тә'минатынын актуал мәсәләләри ики күн әрзиндә мүзакирә едиләчәкдир. Көрүшүн иштиракчылары Орјол вилајәтиндә кәнддә јени истеһсал-игтисади мүнасибәтләрин тәтбиги вә сосиал инкишафын сүр'әтләндирилмәси тәчрүбәси илә таныш олачаглар.

Мүшавирәдә **М. С. Горбачов, В. И. Воротников, Л. Н. Зајков, Ј. К. Лигачов, В. П. Никонов, А. В. Власов, К. П. Разумовски, Ј. Ф. Соловјов,** јолдашлар, мүттәфиг республикаларын коммунист партијалары МК-ларынын, дијар вә вилајәт партија комитәләринин биринчи катибләри, ССРИ Назирләр Совети сәдринин биринчи мүавини В. С. Мураховски, ССРИ Назирләр Совети сәдринин мүавинләри Ј. П. Баталин, Л. А. Воронин, бир сыра назирликләрин вә баш идарәләрин, күтләви информасија васитәләри мәркәзи органларынын рәһбәрләри иштирак едирләр.

Күнүн биринчи јарысында Сов.ИКП вилајәт комитәсинин ичлас салонунда көрүш иштиракчылары кәндин сосиал чәһәтдән јенидән гурулмасы, аграр-сәнаје комплексиндә игтисади ислаһатын һәјата кечирилмәси саһәсиндә Орјол вилајәти партија тәшкилатынын иши илә таныш олмушлар.

Мүшавирәни Сов.ИКП МК-нын Баш катиби, ССРИ Али Совети Рәјасәт Һеј'әтинин сәдри **М. С. Горбачов** ачмышдыр. О демишдир:

Јолдашлар, сизи Орјол торпағында саламлајырам. Бу көрүшү ачаркән изаһ етмәк истәрдим ки, биз нәјә көрә бурада, Орјолда топлашмышыг. Әслинә баханда бу надир вә мүәјјән дәрәчәдә мисли көрүнмәмиш көрүшдүр, һәрчәнд, белә көрүшләр Москвада вә башга јерләрдә дә кечирилмишдир. Ән әввәл биз бу көрүшү XIX партија конфрансынын сијаси көстәришләрини һәјата кечирмәк саһәсиндә партијанын вә зәһмәткешләрин әмәли иши чәрчивәсиндә кечиририк. Бурада биз чари мәгамын вәзифәләрини, өлкәнин әрзаг тәчһизатынын тә'мин олунмасынын әмәли мәсәләләрини мүзакирә етмәк фикриндәјик.

Биз партијанын Мәркәзи Комитәсинин феврал пленумуна һазырлашырыг; пленумда Сов.ИКП-нин индики аграр сијасәтинин вәзифәләрини мүәјјәнләшдирмәји нәзәрдә тутуруг. Инди алимләрлә, мүтәхәссисләрлә, әмәк коллективләринин нүмајәндәләри илә бу мәсәләләр барәсиндә мәсләһәтләширик. Бу јахынларда һәмин мәсәләләри партијанын Мәркәзи Комитәсиндә дахили сијасәтин бу чох мүһүм мәсәләсинин һәллиндә аграр-сәнаје комплекси гаршысында, еләчә дә бүтүн өлкә гаршысында дуран вәзифәләрин јеринә јетирилмәсиндә өлкәнин халг тәсәррүфаты саһәләринин иштиракы бахымындан мүзакирә етмишик. Биз индики көрүшү елә кечирмәлијик ки, өлкәмизин инкишафынын бу мүһүм мәрһәләсиндә Сов.ИКП-нин аграр сијасәтинин нечә олачағы барәдә бизи тәклифләрлә, мүлаһизәләрлә, мүддәаларла зәнкинләшдирсин. Биз аграр бөлмәсинин өзүнүн реаллыгларыны, өлкәдә әрзаг саһәсиндәки вәзијјәти нәзәрә алмалыјыг.

Бу көрүшдә биз игтисадијјатын һәмин саһәсиндә реал тәчрүбәни, елми наилијјәтләри нәзәрдә тутмалыјыг. Зәннимчә, јалныз реаллыглара, һәмин просесләр барәсиндә тәсәввүрләрә, онлара дүзкүн гијмәт верилмәсинә истинад етмәклә биз феврал пленумуна дүшүнүлмүш, елми сурәтдә әсасландырылмыш реал сијасәтлә кәлә биләрик. Бизә бу мөвзуда сөзләр әсла кәрәк дејилдир, јери кәлмишкән дејим ки, бу барәдә сон илләрдә, о чүмләдән дә јенидәнгурма илләриндә аз сөз дејилмәмишдир. Инди бизә ајдындыр ки, бу вәзифәни јеринә јетирмәдән уғурла ирәлиләјә билмәрик. Лакин индики мүшавирәдә бизи зәнкинләшдирә билән фикир мүбадиләсини тә'мин етмәк вачибдир.



В. И. Ленин адына мејданда Орјол шәһәринин сакинләри илә көрүш.



Телефото СИТА-нын хүсуси мүхбирләри Е. Песовун вә В. Завјаловундур.

Бу көрүшдә ишкүзарлыг мәгсәди дә вардыр. Бурада биз республикаларда, дијар вә вилајәтләрдә гыш ајларындакы бөјүк иш әрәфәсиндә әсас бөлмәмизин — колхозларын, совхозларын, кәнд әмәкчиләринин јени тәсәррүфатчылыг формаларына кечмәси јолларыны мүәјјәнләшдирмәк үмидиндәјик. Кәнддә игтисади мүнасибәтләрин әсаслы сурәтдә јенидән гурулмасы кими анлајышын әһатә етдији нә варса, һамысыны мүәјјән етмәк үмидиндәјик. Одур ки, көрүшүмүз тә'хирәсалынмаз характер дашыјан һәмин иши дә нәзәрдә тутмалыдыр.

Јолдашлар, бу, бизим үчүн вачибдир, она көрә ки, бир тәрәфдән кенишләнән просесин һазырда мүәјјән мәрһәләләринә чыхмышыг. Өзүмүзү дә инамлы һисс едирик. Анчаг, дикәр тәрәфдән, һамымыз һисс едирик ки, иш ләнк кедир. Буна көрә дә, зәннимчә, партијанын тутарлы сөзү олмаса, чох бөјүк идеоложи иш, изаһат, тәшкилатчылыг иши, кадрларла, зәһмәткешләрлә иш апарылмаса, бу әмәл ахсајар. Ејни заманда биз кәрәк мәсләһәтләшәк ки, кәнд тәсәррүфаты истеһсалыны јени технолокијалара кечирмәк саһәсиндә әмәли ишимизи бундан сонра нечә гурачағыг.

Јәгин, сиздә белә бир суал јарана биләр: бүтүн бу проблемләри Москвада да мүзакирә етмәк оларды. Ораја кедиб чыхмаг да даһа асан оларды, бәлкә дә, мүшавирә үчүн шәраит һәтта даһа әлверишлидир. Нә дејирсинизсә дејин, амма Москва мүшавирәләр кечирмәјә өјрәшиб, бу ишдә онун, нечә дејәрләр, бөјүк тәчрүбәси вар. **(Салонда чанланма).** Бурада мән ишин дикәр, ејни дәрәчәдә мүһүм чәһәти — өлкәдә әрзаг тәчһизатынын билаваситә јахшылашдырылмасы вә бу ишдә республикаларын, дијарларын, вилајәтләрин партија тәшкилатларынын ролу мәсәләсинә јахынлашырам.

Әлбәттә, мүтәрәгги аграр сијасәтинә малик олмаг чох вачибдир. Вачибдир ки, бу сијасәт мәркәздән, халг тәсәррүфаты саһәләри, елм хәтти үзрә мөһкәмләндирилсин. Бүтүн бунлар доғрудур. Әслинә баханда инди биз мәркәздә елә бу ишлә мәшғулуг вә аграр бөлмәсини јенидән гурмағын һәјати зәрурилијини нәзәрә алмагла мәсәләләри бир-бир һәлл едирик.

Һәр һалда, кәнд тәсәррүфатынын — игтисадијјатымызын бу надир спесифик саһәсинин тәбиәти еләдир ки, ишин нәтичәләри һәлледичи дәрәчәдә јерли органларын фәалијјәтиндән, колхоз вә совхозларын кәнд әмәкчиләринин, фермаларда, торпагда чалышанларын фәалијјәтиндән асылыдыр. Јалныз һәр бир рекионун бүтүн өзүнәхаслығыны нәзәрә алмагла, бүтүн хүсусијјәтләрини нәзәрә алмагла аграр бөлмәсинә рәһбәрлик етмәк вә онун әмәли мәсәләләрини һәлл етмәк олар.

Одур ки, бир даһа демәк истәјирәм: јерләрдә — колхозда, совхозда, шәхси вә дикәр јардымчы тәсәррүфатларда иш, һәмчинин ајдындыр ки, јерли партија, совет, тәсәррүфат органларынын мөвгеји, бу мүһүм ишә онларын мүнасибәти әсаслы сурәтдә јенидән гурулмаса, јухары тәбәгәләрдә биз нә кими иш көрсәк дә, сәмәрә вермәјәчәк.

Бу нөгтеји-нәзәрдән гејд етмәлијәм ки, сон ики-үч илдә Орјол вилајәтиндә чох бөјүк дәјишикликләр баш верир. Бу, мәним белә бир фикрими тәсдиг едир ки, јерли органларын тәшәббүскарлығындан, мүстәгиллијиндән олдугча чох шеј асылыдыр.

Ијирми ил иди ки, бу вилајәт јериндә сајырды. Сәккизинчи бешилликдә бир милјард 100 милјон манатлыг үмуми мәһсул истеһсал едилмишди вә бу гәдәр дә он биринчи бешилликдә. Ијирми ил иди ки, фондлар, әсаслы вәсаит, күбрәләр, техника вә бу кими шејләр верилирди, амма һәмин илләр әрзиндә мәһсул саһәсиндә һәр шеј дәјишмәз галырды. Инди исә 2—3 ил әрзиндә елә мүсбәт дәјишикликләр баш верир ки, дүшүнмәјә вадар едир: бу нә ишдир? Бу, биринчи.

Икинчиси. Биз хүсуси олараг бу вилајәти сечдик. Кубана да кетмәк оларды, орада һәтта ән пис илдә дә көстәриләси шејләр олур. Орада чох бөјүк имканлар вардыр. Башга вилајәтләрә дә кетмәк оларды вә бу күн һәмин јерләрдә бәлкә дә даһа бөјүк тәчрүбә вардыр. Даһа доғрусу, вәзијјәт даһа јахшыдыр. Кәндләр дә, јоллар да — һәр шеј даһа јахшыдыр. Амма биз һәр һалда бураја кәлдик. Она көрә ки, ијирми ил иди бурада јериндә сајырдылар, һәм дә јадда сахламаг лазымдыр ки, бу вилајәт мүһарибә нәтичәсиндә көкүндән дағылмышды. Дијарда елә вурушмалар олмушду ки, һәјаты дирчәлтмәк үчүн чох бөјүк сә'јләр лазым кәлмишди. Индијәдәк Орјол вилајәтиндә әһали мүһарибәдән әввәлкиндән station аздыр. Бүтүн бунлары нәзәрә алараг, вилајәтдә мүсбәт дәјишикликләр кетдијини демәлијик. Һалбуки биз бураја, нечә дејәрләр, һеч бир һамилик апармамышыг. Орјол вилајәти барәсиндә һамилик тәшкил етмәмишик. Мәһз бу нөгтеји-нәзәрдән дә вилајәтдәки тәчрүбә бизим үчүн әһәмијјәтлидир.

Вәзијјәт дәјишмәјә башлајыб, һәрчәнд, әлбәттә, онларын әсас иши һәлә габагдадыр. Амма мүсбәт чәһәт, бах, будур. Биз ики јердә Орјол вилајәтинин зәһмәткешләри илә сөһбәт едәндә онлар дедиләр: әрзаг проблеми даһа галдырылмыр. Мән суаллар вердим. Јох, дедиләр, инди доланмаг олур. Әлбәттә, вәзијјәти јахшылашдырмаг лазымдыр, лакин инди вәзијјәт дәјишмишдир. Мәнзил һаггында, иншаатчыларын ишинин кејфијјәти һаггында, мүәссисәләрин модернләшдирилмәси һаггында мәсәлә вә башга мәсәләләр галдырылыр. Марағлыдыр. Бу, вәзијјәтин дәјишмәси демәкдир вә зәһмәткешләр дәјишиклији һисс едибләр. Өзү дә, јолдашлар, чәми ики-үч илдә!

Зәннимчә, инди başга дүшүрсүнүз ки, бу көрүш принсипчә бизә нәјә көрә лазым иди: бизә сизинлә чари мәгам һаггында, әрзаг ишләри һаггында данышмаг кәрәкдир. Нәһајәт, билмәк кәрәкдир ки, көрүш нә үчүн мәһз Орјол вилајәтиндә кечир.

Мүшавирәни ачыг е'лан едирәм.

Сов.ИКП Орјол Вилајәт Комитәсинин биринчи катиби **Ј. С. Стројева** сөз верилмишдир. О демишдир:

Ичазә верин, вилајәт партија комитәси бүросунун, вилајәт коммунистләринин вә бүтүн зәһмәткешләринин тапшырығы илә сизи чохмилләтли Вәтәнимизин ән јахшы оғул вә гызларынын сел кими ахан ганы илә бојанмыш Орјол торпағында сәмими саламлајым! Белә көрүш Русијанын мәркәзиндә илк дәфә кечирилир вә биз азачыг ирәлиләјишимизә вердијиниз гијмәт үчүн, бу дијарын симасынын дәјишдирилмәсинә көстәрдијиниз гајғы вә бөјүк диггәт үчүн Мәркәзи Комитәјә, Михаил Серкејевич, Сизә үрәкдән миннәтдарыг.

Бурада олачағыныз мүддәтдә чалышачағыг ки, Сизи партијанын апрел хәттинин — јенидәнгурма вә Орјол вилајәтинин аграр-сәнаје комплексинин сосиал-игтисади инкишафыны сүр'әтләндирмәк хәттини һәјата кечирмәк саһәсиндә партија тәшкилатларынын вә әмәк коллективләринин иш тәчрүбәси илә таныш едәк.

Адәтән танышлыг вилајәтин гыса характеристикасындан башланыр. Сизә мә'лум олдуғу кими, вилајәт Русијанын лап мәркәзиндә јерләшир вә 25 мин квадраткилометр саһәни әһатә едир. Әһалинин сајы 864 мин нәфәрдир, онун 64 фаизи шәһәрләрдә јашајыр.

Биздә 7 шәһәр, шәһәртипли 14 гәсәбә вә 23 кәнд рајону вардыр. Азачыг таныш олдуғунуз вилајәт мәркәзиндә тәгрибән 340 мин нәфәр јашајыр. Орјолун әсасы 1566-чы илдә гојулуб. Дикәр шәһәрләр арасында һәрәсиндә 50 мин нәфәр әһалиси олан Ливны вә Мтсенск шәһәрләринин адларыны чәкмәк лазымдыр.

Вилајәт партија тәшкилатынын сыраларында 77 мин нәфәрәдәк коммунист вардыр. Халг тәсәррүфатында чалышанлар арасында партија тәбәгәси 14 фаиз тәшкил едир. Вилајәтдә Сов.ИКП-нин 27 шәһәр вә рајон комитәси, 1.860 илк партија тәшкилаты вардыр. Орјолда 7 али мәктәб вә 10 елми тәдгигат институту јерләшир.

Орјол вилајәти бөјүк тарихи јол ајрычыдыр вә Вәтәнин талеји бурада дәфәләрлә һәлл едилмишдир. В. И. Ленин әһалиси үч рус ингилабында јахындан иштирак етмиш Орјол губернијасынын һәјатындан өз әсәрләри үчүн дәфәләрлә нүмунәләр кәтүрмүшдүр.

Дүнјада биринчи сосиалист дөвләтини боғмаг планлары бурада ики дәфә позулмушдур. 1919-чу илдә Орјол јахынлығында кәнч Гызыл Орду Москваја чан атан кенерал Деникинин сечмә гошун һиссәләрини дармадағын етмишди. Бөјүк Вәтән мүһарибәси заманы Орјол—Курск чыхынтысында фашист гошунлары бүсбүтүн дармадағын едилмиш, 1943-чү ил августун 5-дә Вәтәнимизин пајтахты Орјол вә Белгород шәһәрләринин азад едилмәси шәрәфинә илк дәфә јајлым салам атәши ачмышды. Шәһәримиз тарихә елә биринчи јајлым салам атәши шәһәри кими дә дахил олмушдур! Дөјүшләрдә шүчаәт вә мәрдлик көстәрдикләринә көрә 160 орјоллу Совет Иттифагы Гәһрәманы јүксәк адына лајиг көрүлмүшдүр.

22 ај давам етмиш фасиләсиз дөјүшләрдән сонра шәһәрләр дағылыб харабаја дөнмүш, кәндләр јаныб күлә чеврилмишди. Орјолун, аз гала һәр бир гәсәбә кәндинин дә агибәти Хатынын вә Лидитсенин агибәти кими олмушду. Вилајәт (мүһарибәдән әввәлки һүдудларда) о гәдәр адам итирмишдир ки, икинчи дүнја мүһарибәсинин бүтүн алты или әрзиндә Америка Бирләшмиш Штатлары о гәдәр адам итирмәмишдир (455 мин вә 355 мин нәфәр). Халг тәсәррүфатына чох бөјүк зијан дәјмишди, әһали исә вар-јохдан чыхмышды. Бу барәдә сәнәдли филм вар (1943-чү ил). Һәмин филмә бу күн дә көз јашлары ахытмадан бахмаг мүмкүн дејилдир. Јалныз 60-чы илләрдә биз адамлары газмалардан вә зирзәмиләрдән чыхармаға мүвәффәг олдуг.

Мүһарибәнин дағытдығы тәсәррүфат, сәнаје әслиндә јенидән јарадылырды. Бу күн вилајәт автогрејдерләр, јүквуран машынлар, металкорд, мүхтәлиф насослар, саатлар, чиһазлар, һесаблама техникасы вә бир чох башга аваданлыг истеһсал едир. Сәнаје мүәссисәләринин мәһсулу дүнјанын 70 өлкәсинә көндәрилир. Мүһарибәдән әввәлки дөврә нисбәтән мәһсул истеһсалынын һәчми 30 дәфә артмышдыр.

Бүтүн бу јени заводлара вә фабрикләрә, һүндүр евләрә, мүасир институтлара вә шәһәр сивилизасијасынын башга не'мәтләринә рус кәндләри һәјат вермишдир. Рус кәндинин өзү исә олмазын дәрәчәдә чәтин шәраитдә иди.

Буна көрә дә вилајәтимизин зәһмәткешләри, Михаил Серкејевич, колхозчуларын дөрдүнчү гурултајында Сизин дедијиниз сөзләри бөјүк разылыг һиссилә гаршыладылар: «Русија Гејри-гараторпаг зонасынын проблемләри бүтүн совет адамларыны дүшүндүрүр... Бу јерләр рус торпағынын үрәјидир... Бурада јашајан адамлар ән чәтин илләрдә вар-јохларыны өлкәнин башга рајонлары илә бөлүшмүш, бир сыра республикаларымызын игтисади вә мәдәни тәшәккүлүнә чох бөјүк көмәк көстәрмишләр».

Вилајәтин коммунистләри, зәһмәткешләри игтисадијјатын аграр бөлмәсинин еһтијачларына дөнүш етмәк барәдә партијанын хәттини гызғын мүдафиә етдиләр. Кәнди дирчәлтмәк, онун гүввәсини вә нәһајәт, она да нөвбә чатдығы барәдә инамыны артырмаг бизим үчүн сон дәрәчә зәруридир. Ахы мүһарибәнин төрәтдији дағынтылар, сонра исә волунтаризм, сосиал саһәјә вәсаит гојулушунда галыг принсипи, бир чох кәндләрин «перспективсиз» е'лан олунмасы, кичик комплектли мәктәбләрин вә саһә хәстәханаларынын бағланмасы, башга мәнфи һаллар нәтичәсиндә иш о јерә чатмышды ки, бурадакы чәтинликләр сәбри түкәндирмишди. Адамлар доғма јерләри тәрк етмәјә башламышдылар. Сон 20 илдә кәнд әһалисинин сајы ики дәфә азалмышды, чохәсрлик тарихи олан 700-дән чох кәнд јох олуб кетмишди.

Лакин бу хәстәлији мүаличә етмәк әвәзинә биз ону адамлардан кизләтмәјә башладыг. Тахылын, әтин, сүдүн, дикәр кәнд тәсәррүфаты мәһсулларынын гијмәтләрини чох-чох учузлашдырмагла, ејни заманда кәндлиләрин разылығы олмадан техниканын, тикинти материалларынын, еһтијат һиссәләринин, дикәр еһтијатларын вә хидмәтләрин гијмәтләрини бир нечә дәфә галдырмагла биз, нәһајәт, кәндин ахырына чыхдыг, үстәлик, өлкәнин малијјә системини дә позудг. Туркеневин «Муму» һекајәсиндәки лал Керасимин е'тиразы кими, кәндли ичтимаи истеһсала һәр чүр марағыны итирди вә вәтәни бәсләјән башлыча сима олмаг е'тибары илә тәнәззүлә уғрамаға башлады. Кәндлинин лагејдлик вә биканәлик, сосиал әләбахымлыг вә үмидсизлик әһвал-руһијјәси бүрүмүшдү.

Белә бир шәраитдә кәнддә јарадылан истеһсал потенсиалы лазыми сәмәрә вермирди. Тарлаларын вә фермаларын мәһсулдарлығы әввәлки кими ашағы сәвијјәдә галырды. Тәсәррүфатларын 70 фаиздән чоху зәрәрлә ишләјирди.

Һәтта Гејри-гараторпаг зона һаггында гәрар гәбул едилдикдән сонра да биз әталәт гүввәси илә мадди база һаггында мүһакимә јүрүтмәкдә давам едир, даһа чох әт вә сүд әлдә етмәк истәјирдик, инсан, онун еһтијачлары вә гајғылары исә кәнарда галмышды. Бир чох тәсәррүфатларда әсас фондларын дәјәриндә сосиал саһәнин пајы чәми беш—једди фаиз тәшкил едирди. Нәтичәдә кәнд һәјатынын укладынын өзү дағылмышды.

Буна көрә дә кәндин коммунистләри, бүтүн әмәкчиләри МК-нын апрел (1985-чи ил) пленумунун хәттини үмид гығылчымы кими, бизим мүасир мәрһәләдә аграр сијасәтин Ленин анлајышына гајтармаға гадир олан парлаг вә чәсарәтли идеја кими гаршыладылар. Вилајәт партија тәшкилаты бу мүнасибәтләри, Михаил Серкејевич, Белгородда, сонра исә Селиноградда Сизин вердијиниз көстәришләри рәһбәр тутараг, сосиал мәсәләләри һәртәрәфли һәлл етмәк, идарәетмәнин игтисади методларыны ишләјиб һазырламаг, Орјол вилајәтинин кәндләрини дирчәлтмәк үчүн башга јоллар ахтарды. Үмуми сијаси көстәришләри һәр бир әмәк коллективинин конкрет ишләринин дилинә чевирмәк бизим үчүн вачиб иди.

Бу мәгсәдлә биз јаранмыш шәраити тәнгиди руһда тәһлил етдик. Москва вилајәтинин, Литванын вә Белорусијанын тәчрүбәсини өјрәндик вә бунун әсасында өз ишимизин башлыча истигамәтләрини мүәјјәнләшдирдик, онлары пленумун мүзакирәсинә вердик, 12 мәгсәдли комплекс програм тәсдиг етдик, бүро үзвләринин вә вилајәт Совети ичраијјә комитәси үзвләринин тәркибиндән һәмин програмларын јеринә јетирилмәси үчүн мәс'ул шәхсләр ајырдыг.

Кадрлар белә сәрт дөнүшә һазыр идиләрми? Инди архаја нәзәр саларкән ачыг демәк олар: јох, һазыр дејилдиләр. Башлыча саһәләри чаван, лакин сәриштәли вә сијаси чәһәтдән јеткин кадрлар илә диггәтлә, партија нәзакәти илә мөһкәмләтмәк лазым кәлди. Тәгрибән 40 нәфәр рајон вә шәһәр партија комитәси рәһбәрлијинә чәлб олунду, тәсәррүфат органлары да хејли дәрәчәдә тәзәләнди. Һәм дә бүтүн бу тәдбирләр вахтында көрүлдү. Онларын әксәријјәти вәзијјәти тезликлә өјрәнди вә ону јахшылашдыра доғру дәјишдирди. Тәшкилатларын вә баш идарәләрин ичра интизамы хејли јүксәлди.

Вилајәт партија комитәсинин пленумунда биз әсас вәзифәни белә мүәјјән етдик — ишчиләрин өз мәнлијиндән вә өз әмәјинин нәтичәләриндән јадлашмасы нәтичәсиндә јаранмыш лагејдлији арадан галдырмаг јолларыны ахтарыб тапмалы. Бу мәгсәдлә коллектив подраты фәал тәтбиг етмәјә башладыг. Партијанын Мәркәзи Комитәси Глазуновка рајон партија тәшкилатынын бу истигамәтдә топладығы мүсбәт тәчрүбәни бәјәнмишдир.

Коллектив подраты истеһсалын чанланмасына наил олмаға имкан верди. Лакин лап әввәлдән кордүк ки, коллектив подраты башлыча вәзифәни јеринә јетирмәјә имкан вермир — мәһсул истеһсалына сәрф олунан вәсаитә нәзарәт мәсәләсини тә'мин етмир, јә'ни вәсаит мәсрәфини азалтмаг механизми ишләмир.

Буна көрә дә биз игтисадијјаты там тәсәррүфат һесабына вә өзүнүмалијјәләшдирмә принсипинә кечирмәк һаггында Сов.ИКП МК ијун (1987-чи ил) пленумунун гәрарларыны рәһбәр тутараг, мәһсулун вә истеһсал васитәләринин алынмасы вә сатылмасы әсасында ичарә подратыны һәр јердә әзмлә тәтбиг етмәјә башладыг. Илк аддымлардан һисс етдик ки, бу форма сырави әмәкчиләр үчүн олдугча мүнасибдир. Һәмин форма реал һәјатда онлары истеһсалын саһибләринә чевирди, истеһсал хәрчләри үзәриндә, инзибати-идарә һеј'әти вә мүтәхәссисләр үзәриндә сәрт игтисади нәзарәти тә'мин етди, башлычасы исә, инсанын дахилини, онун шүуруну буховлардан азад етди. Илк дәфә һәр кәсин кимлијини ајдынлашдырмаг, јә'ни һәр бир адамын исте'дадыны үзә чыхармаг вә имканларыны өјрәнмәк үчүн шәраит јаранды. Шәхсијјәтин симасызлашмасы — бүрократик системин бу башлыча галасы үзәринә әсл һүчум башланды.

Нәтичәдә биз елә бир мәгама кәлиб чатдыг ки, аграр сијасәтини амирлик-бүрократик апараты дејил, илкин әмәк коллективи, истеһсалчы өзү мүәјјән етмәјә башлады.

Бу күн ичарәнин хејриндән чох данышылыр вә јазылыр, һәрчәнд дејиләнләр вә јазыланлар һеч дә һәмишә ағлабатан олмур. Ону тез-тез коллектив подраты илә дәјишик салырлар. Лакин објектив е'тираф етмәк лазымдыр ки, јени һәрәкат тәзәчә башлананда нә нәзәријјәдә, нә дә практикада һәләлик һеч бир тәчрүбә топланмамышды. Сынаглар вә сәһвләр јолу илә ирәлиләмәк, В. И. Ленин адына Үмумиттифаг Кәнд Тәсәррүфаты Елмләри Академијасы илә, шәхсән академик А. А. Никонов илә даим мәсләһәтләшмәк лазым кәлирди.

Вилајәтин коммунистләри гаршысында әмәли вәзифә гојулмушду: јени игтисади механизми садәчә дәрк етмәк јох, чыырачанлары тапмаг, онлары өјрәтмәк вә ичарә мүнасибәтләринин јүксәк сәмәрәсини чанлы нүмунәләр әсасында сүбут етмәк. Јерли шәраитә тәтбигән төвсијәләр ишләниб һазырланды, рајон вә шәһәр партија комитәләринин биринчи катибләри, шәһәр (рајон) ичраијјә комитәләринин сәдрләри дә дахил олмагла бүтүн рәһбәрләрә вә мүтәхәссисләрә тә'лимат верилди. Онлардан зачотлар гәбул едилди. Аграр-сәнаје комплексинин тәгрибән 90 мин әмәкчиси курсларда һазырлыг кечди.

Әмәли јардым көстәрмәк үчүн колхоз вә совхозлара партија-тәсәррүфат фәаллары сырасындан 450 мүтәхәссис, алим, мәс'ул ишчи көндәрилди. Мүнтәзәм сурәтдә тәсәррүфат һесабы күнләри, һәр чәршәнбә һејвандар күнләри кечирилмәјә башланды. Ичарәдарлар илә мүнтәзәм көрүшләр практикада мөһкәм јер тутур. Һәмин көрүшләр дискуссијалар формасында кечирилир. Јени игтисади гаршылыглы мүнасибәтләрин ән дәрин чәһәтләри бу јолла даһа јахшы ајдынлашдырылыр, ләнкидичи амилләр вахтында арадан галдырылыр.

Вилајәт партија комитәсинин бүросу бу мәсәлә барәсиндә 12 партија комитәсинин һесабатларыны динләмиш, Долгоје рајонундакы «Вышне-Олшански» совхозунун вә Свердлов рајонундакы Свердлов адына колхозун партија комитәләринин иш тәчрүбәсини, һабелә Уритски рајону ичарәдарларынын тәшәббүсүнү бәјәнмишдир. Уритски рајонунун ичарәдарлары бүтүнлүклә ичарә подратына кечмәк гәрарына кәлмишләр. Бу һәрәката коммунистләр башчылыг едирләр.

Партија комитәләринин, мүтәхәссисләрин сәбрлә көрдүкләри ишин сајәсиндә биздә ичарә коллективләринин мүхтәлиф тәшкилат формалары тәшәккүл тапмышдыр. Дар ихтисаслы мангалар даһа кениш јајылмышдыр. Һәмин мангалар чох вахт аиләләрдән вә ја гоһумлардан ибарәт олур. Ичарәнин белә формасыны биз даһа сабит, перспективли вә сәмәрәли һесаб едирик.

Биздә даһа ири бөлмәләр вардыр. Онлар нөвбәли әкини вә ја ферманы бүтүнлүклә подрата көтүрүрләр. Дар ихтисаслы кооперативләр дә јарадылмышдыр. Онларын аграр-сәнаје банкында өз һесаблары вар. Чохиллик отлар, хүсусән јонча тохумлары истеһсал едән кооперативләри мисал көстәрмәк олар. Бир сыра рајон мәркәзләриндә әһали әт истеһсал едән, һабелә чошга бәсләјән тәсәррүфатлараарасы кооперативләр јаратмышдыр. Шәхси јардымчы тәсәррүфатын идарә олунмасына көмәк едән, ветеранлара вә гочалара мәишәт хидмәти көстәрән кооперативләр дә өзүнү доғрулдур. «Аграрсәнајетикинти» бирлији бүтүн кәрпич заводларыны ичарәјә верир.

Бу күн инамла демәк олар ки, ичарә дәрин көк атмышдыр, һәм дә һеч бир инзибати тәзјиг олмадан. О, адамлара идеја вермишдир. Һәмин идејанын әсасында исә јенидәнгурманын гәтијјәтли, әгидәли тәрәфдарлары мејдана чыхмышлар. Ичарәдарларын чох сәмәрәли ишинә аид вилајәтдә бир чох парлаг вә инандырычы нүмунәләр вардыр. Онларын тәчрүбәси илә сиз алдыныз материаллардан таныш ола

(Арды 2-чи сәһифәдә)

КӘНДДӘ СОСИАЛ ИНКИШАФЫ СҮР'ӘТЛӘНДИРМӘЛИ

(Әввәли 1-чи сәһифәдә)

билирсиниз. Бир чох чығырачанлары букүнкү көрүшә дә'вәт етмишик. Онларын бә'зиләри илә сиз билавасitә иш јерләриндә көрүшәчәксиниз.

Игтисади гаршылыглы мүнасибәтләрин јени формасы санбаллы нәтичәләр верир. Елә Владимир Ербертович Рајсын башчылыг етдији коллективи мисал кәтүрәк. О, Уритски рајонунда зәифләмәкдә олан Сов.ИКП адына колхозда там башлы-башына бурахылмыш ферманы ичарәјә көтүрмүшдүр, елә ферманы ки, орада һәр инәкдән 1.850 килограм сүд сағылырды. Ичарәдарлар коллективи хидмәтедичи һеј'әти он нәфәр ихтисар едиб, ики ил әрзиндә һәр инәкдән сағылан сүдүн мигдарыны 1.750 килограм артырмышдыр.

Знаменка рајонундакы «Новаја жизн» колхозунун Плехановка фермасы рајон комсомол комитәси бүросунун үзвү Јелена Серкејевна Знаменскајанын башчылыг етдији коллективә ичарәјә вериләндә орада да вәзијјәт тәхминән белә иди. Бу күн ферма һәр инәкдән сағылан сүдүн мигдарыны дөрд мин килограма чатдырыр вә мәһсулун маја дәјәрини хејли ашағы салмышдыр.

Белә мисаллардан чох кәтирмәк олар, амма бунлар тәкчә өз көстәричиләри илә дејил, демәк олар, даһа чох адамларын психолокијасынын, онларын дахили аләминин дәјишмәси илә марағлыдыр. Мәсәлән, «Вышне-Олшански» совхозундан олан Виктор Перфилјевич Дорофејевин аиләси 500 чошга көкәлтмәји өһдәсинә көтүрмүшдүр. Әввәлләр бу гәдәр чошгаја беш нәфәр гуллуг едирди вә онлар ајда једди сентнердән чох артым әлдә едә билмирдиләр. Дорофејев арвады илә бирликдә елә биринчи ај 45 сентнер, сонра 50 сентнер артыма наил олмушдур, инди исә һәр сентнерин маја дәјәри 130 манат олмагла 60 сентнердән чох артым әлдә едир. Инди әр вә арвадын өзләри севинирләр, өвладлары да онларла фәхр едирләр. Бу јахынларда вилајәт партија комитәсиндә ичарәдарларла көрүшдә Виктор Перфилјевич белә бир әһвалат данышмышдыр. Рајон комсомол комитәсинин катиби олан оғлу онун јанына фермаја кәлиб дејиб: «Атачан, кәл сәни өпүм. Ушагларын һамысы мәндән сорушур ки, сән доғруданмы мәним атамсан?».

16 ил колхоз сәдри ишләмиш, инди исә чохиллик от тохуму истеһсалы үзрә аилә кооперативи тәшкил етмиш Леонид Петрович Пешехонов бу барәдә көрүн нә дејир: «Тарлада мәним ардымча ики оғлумун нечә трактор сүрдүјүнү көрәндә үрәјим дағa дөнүр. Мән сәдр олдуғум күнләрдә һеч вахт белә севинмәмишдим». Јери кәлмишкән дејим ки, онун һәр ики оғлу вә кәлини Тимирјазев академијасынын чәмәнчилик факүлтәсини битирибләр.

Јолдашлар, һәм дә бунлар ајры-ајры епизодлар дејилдир. Бу ил бүтөвлүкдә вилајәт үзрә ичарә коллективләриндә әмәк мәһсулдарлығы әмәјин ади тәшкили шәраитиндәкинә нисбәтән 1,9 дәфә јүксәк олмуш, әмәк һаггы исә јалныз 25 фаиз артмышдыр. Инди биздә 400-дән артыг аилә коллективи ишләјир, 53 тәсәррүфат бүсбүтүн ичарә подратына кечмишдир. Демәли, кәндли көкләри һәлә јашајыр, бу исә партија ишиндә башлыча мәсәләдир. Тәсадүфи дејилдир ки, бу мәсәлә инди кечирилән рајон һесабат партија конфрансларында әсас мәсәләләрдән биридир.

Икинчиси. Ичарә зәрури шәрт кими бүтүн рәһбәрләри вә мүтәхәссисләри үмуми кәлирә көрә әмәк һаггына кечирмәји гаршыја гојмушдур. Кечән илдән тәсәррүфатларын бүтүн рәһбәрләри вә мүтәхәссисләри, бу илин јанварындан исә РАСБ-ын да бүтүн мүтәхәссисләри белә әмәк һаггына кечирилмишләр. Бу, интенсив технолокијаларын тәтбигинә онларын марағыны артырмыш, онлары елми-техники тәрәггинин наилијјәтләриндән даһа фәал истифадә етмәјә вадар етмишдир. Бу иши низама салмаг мәгсәдилә биз једди елм-истеһсал системи, о чүмләдән зәлал вә јемләр, тахыл, дамазлыг иши вә башга истигамәтләр үзрә системләр јаратмышыг. Онларын бә'зиләри бурадакы сәркидә тәмсил олунмушдур.

Ашағы тәшкилат структурундакы дәјишикликләр рајон вә вилајәт сәвијјәсиндә аграр-сәнаје комплексинин идарә олунмасында структур дәјишикликләринин зәрурилијинә сәбәб олмушдур. Инди даһа тәсәррүфат рәһбәрләринин өзләри партија конфрансларында белә мәсәлә галдырырлар: әкәр хидмәт саһәләрини башга чүр јенидән тәшкил етмәк мүмкүн дејилсә, кәлин, онлары сатын алаг. Демәли, даһа вахт көзләмир. «Ливны» агрокомбинаты вилајәтимиздә икинчи илдир ки, ишләјир вә харичи фирмаларла әлагә сахламаға башлајыр. Орјол вә Уритски рајонларынын аграр-сәнаје бирликләри идарәетмәнин кооператив формасына кечирилмишләр. Мүтәхәссисләр ичарә коллективләриндә ишләмәјә башламышлар. Инди белә коллективләрдә 500 нәфәрдән артыг агроном, мүһәндис, зоотехник ишләјир.

Лакин аграр комплексиндә гаршымыза чыхмыш чәтинликләри тәкчә белә тәдбирләрлә арадан галдырмаг олмазды. Һәјат кәндә сосиал дәјишикликләр олунмасыны гәтијјәтлә тәләб едирди. Бу вәзифәни јеринә јетирмәк үчүн биз керидә галан тәсәррүфатлары дирчәлтмәјә башладыг. Ајаға галхмаг үчүн онлара реал имкан вермәк лазым иди. Бунун үчүн ән керидә галан 106 колхоз вә совхозун сосиал-игтисади инкишафына даир мәгсәдли комплекс програм һазырладыг вә ону һәјата кечиририк, чүнки һәмин колхоз вә совхозларда башга тәдбирләрин һеч бири вәзијјәти дүзәлдә билмәзди. Подрат тәшкилатларынын гүввәси илә бурада бүтүн һәјат тә'минаты васитәләри, инкишаф етмиш сосиал саһәси олан гәсәбәләр тикинтисинә башладыг. Бу күн 80 белә гәсәбә мүхтәлиф һазырлыг мәрһәләсиндәдир. Онларын бә'зиләрини көрәчәксиниз.

Һәмин мәгсәдләрә биз 500 милјон манатдан артыг әсаслы вәсаит јөнәлтдик. Дүзүнү демәк лазымдыр ки, белә дөнүш асанлыгла баш вермәмишдир. Вилајәт партија комитәсинин бүросу е'тираз едәнләрин, һәмин тәсәррүфатларын перспективиндән чохдан үмидини кәсәнләрин күчлү мүгавимәти илә гаршылашмалы олду.

Бундан башга, вилајәт партија комитәси шәһәрләрин вә рајон мәркәзләринин мүәссисә вә тәшкилатларынын һәрәсинин бир јај мөвсүмүндә бир јени гәсәбә салмаға башладыглары кими халг тикинтиси тәшәббүсүнү бәјәнмишдир. Бу идеја мајда ирәли сүрүлмүшдү, амма пајызадәк биз тамамилә абадлашдырылмыш вә јоллары салынмыш 28 кичик гәсәбәни бирбиринин ардынча гәбул етмәјә башладыг. Әкәр биз елликлә бу методу тәтбиг етмәјә мүвәффәг олсадыг, тезликлә кәнди дә дирчәлдәр, онун борчуну да гајтарардыг. Фәрди тикинти үсулу да чанланмаға башламышдыр. Бүтүн бунлар үч ил әрзиндә мәнзил тикинтисини үчдә бир гәдәр, мәктәбәгәдәр ушаг мүәссисәләринин, дикәр сосиал објектләрин вә мәдәни-мәишәт објектләринин тикинтисини 1,5—2 дәфә артырмаға имкан вермишдир.

Һәр һалда кәнддә тикинти ән нөгсанлы саһәдир. Биз тикинти материалларына сөзүн әсл мә'насында мөһтачыг, кәндә газ чәкилмәсини лазымынча кенишләндирә билмирик, електрик тәчһизаты мәсәләси һәлл едилмәмишдир. Електрик шәбәкәләри бәрбад һала дүшмүшдүр. Һеч кәс дә онларын дәјишдирилмәси вә ја јенидән гурулмасы мәсәләсини һәлл еләмир.

Јаранмыш вәзијјәтдән чыхмаг үчүн биз ики заводун — кәрпич вә силикат блоклар заводларынын өзүлүнү гојмушуг, монолит тикинтини кенишләндиририк. Үзлүк тава истеһсалы заводунун тикинтиси һаггында Италија фирмалары илә мүгавилә имзаланмышдыр. Кирәмит һазырланмасы үчүн гурғулар јарадылмасы һаггында Гәрби Алманија саһибкарлары илә данышыглар апарырыг. Бүтүн бунлар бир мүддәтдән сонра олачагдыр. Анчаг отуруб көзләмәк олмаз, буна көрә дә инди бизә көмәк лазымдыр.

Лакин јашајыш евләри тикмәк һәлә һәр шеј демәк дејилдир. Һарадан адам тапмаг мәсәләси бизи һәр шејдән чох дүшүндүрүрдү. Бу ишдә биз «Комсомолскаја правда»дан чидди көмәк көрдүк, «Правда», «Известија», «Советскаја Россија», «Селскаја жизн» гәзетләриндә дәрч олунмуш дәрин вә објектив материаллар, радио вә телевизија верилишләри санбаллы рол ојнады. Адамлар кәндимизә кәлмәјә башладылар вә ону өзләринә мәскән сечдиләр. Бу күнәдәк 30 миндән артыг әризә алынмышдыр. 800 сағычы гадын чатышмырды — 1.500 нәфәр кәлмишдир, 2 мин нәфәрдән артыг да механизатор, үмумијјәтлә исә, 13 мин нәфәрәдәк адам кәлмишдир. Кимсәсиз галан кәндләрин бир нөв икинчи дәфә мәскунлашмасы башланмышдыр. Һәм дә әсасән кәнчләр кәлирләр, о кәсләр ки, бундан әввәл доғма јерләриндән чыхыб кетмишдиләр. Москвадан, Белорусијадан, өлкәнин башга јерләриндән дә кәлирләр. Кәнддә, нәһајәт, ушаглар сәс-сәсә вермәјә, ушаг күлүшләри ешидилмәјә башламышдыр. 59 әлавә мәктәб ачмаг лазым кәлмишдир. Лакин бунлар хошакәлән зәһмәтләрдир. Тәки белә ишләр олсун! Биз «Јашамаг үчүн кәнди сечирәм» һәрәкатындан өтрү комсомола миннәтдарыг. Елә комсомолун өзү дә, итибатмыш рус кәндләринин тәшәккүлүнә вә дирчәлмәсинә көмәк етмәк кими конкрет иш она тапшырыланда сөзүн әсл мә'насында чанланды. Бураја бә'зән гәрибә мәктублар кәлир, мәсәлән, белә мәктублар: «Дејәсән, мән сизин үчүн јарамырам, гочајам, 36 јашым вар, амма хаһиш едирәм мәни көтүрүн...».

Краснодар дијарынын Кушшевскаја станитсасындан Анна Алексејевна Кравтсова исә көрүн нә јазыр: «Сизин тәбиәтинизи көрдүк, чох хошумуза кәлди. Гәдим әкинчиләр нәслиндән олан 14 нәфәрдән ибарәт аиләмиз сиздән торпаг вә ферма ичарәјә көтүрмәк истәјир. Арзумуз мүмкүн гәдәр чох тәрәвәз вә әт мәһсуллары әлдә етмәкдә өлкәјә јардым көстәрмәкдир...».

Москва шәһәриндән кәнч Сидорушкинләр аиләси билдирир ки, «Торпаға гајытмалы» телевизија верилишинә бахдыгдан сонра аилә Орјол кәндиндә јашајыб ишләмәк истәмишдир. Москвалылардан Сычовлар, Крым вилајәтиндән Голуб аиләси вә һәтта Днепропетровскдан олуб биздә кооператив тәшкил етмәк истәјән елми тәдгигат гарғыдалы институтунун аспиранты Камеренко да бу арзуда олдугларыны билдирирләр.

Лакин адамларын көчмәси демографик проблеми һәлл етмәјимизә көмәк етсә дә, бу проблеми тамамилә арадан галдырмыр. Кәрәк өз әһалимиз артсын. Адамлар олан јердә исә һәр чүр мәсәләни һәлл етмәк мүмкүндүр.

Керидә галан тәсәррүфатларын игтисадијјатынын јүксәлдилмәси күчлү вә јүксәк рентабелли колхоз вә совхозларла апарылан ишин зәифләдилмәси демәк дејилдир. Әксинә, биз һисс етмишик ки, онларын бир чоху хејли вахтдыр әввәлки наилијјәтләрә аид мүсбәт рәгәмләрин архасында кизләнирләр. Вилајәт партија комитәсинин бүросу вилајәтдә бир гајда олараг ләјагәтли, нүфузлу адамларын башчылыг етдикләри ән јахшы 60 тәсәррүфатын ишини өјрәндикдән сонра бу нәтичәни чыхармышдыр. Буну онларын үзүнә ачыг демәк лазым кәлмишдир. Беләликлә, биздә елә хүсуси програм һазырланмышдыр ки, һәмин програма көрә габагчыл тәсәррүфатлар да ичарә мүнасибәтләрини тәтбиг едәрәк истеһсалы 1,3—1,5 дәфә артырмаг гәрарына кәлмишләр.

Нәһајәт, биз әт истеһсалыны ән керидә галан саһә һесаб едиб һәмин проблемин һәлли үчүн һәр чүр јоллардан истифадә етмәји вә бунларын ичәрисиндә ән сүр'әтли јол кими әһалинин истифадәсиндә олан мал-гаранын сајыны ики дәфә артырмағы, евдә ичарәни инкишаф етдирмәји, һәр тәсәррүфатда бир-ики аилә кооперативи јаратмағы гәрара алмышыг. Ејни заманда гаршымыза һәр бир рајонда 20 күнлүк бузовлардан башлајараг гарамалын көкәлдилмәси үчүн комплексләр вә донуз көкәлдилмәси үчүн комплексләр јаратмаг вәзифәсини гојуруг. Һәм дә бүтүн бу ишләри көрәркән анчаг өзүмүзүн тәдарүк етдијимиз јемләрә бел бағлајырыг.

Мәһсулун е'малы вә сахланмасы саһәсиндә һәлл едилмәмиш олдугча чохлу мәсәлә јығылыб галмышдыр. Бу мәсәләләр кәнд тәсәррүфатынын инкишафыны чидди сурәтдә ләнкитмәјә башлајыр, зәһмәткешләрин наразылығына сәбәб олур ки, бу барәдә дә бу јахынларда Сов.ИКП МК-да кечирилән мүшавирәдә һаглы олараг данышылмышдыр.

Вәзијјәтин кәскинлијини зәифләтмәк үчүн бу саһәјә даһа чох вәсаит јөнәлтмәјә вә һәмин вәсаитдән истифадә етмәјә башладыг. Әт вә колбаса мә'мулаты, натурал пендир, гәннады мә'мулаты, мејвә-тәрәвәз консервләри, алкоголсуз ичкиләр истеһсалы үзрә әлавә гурғулар ишә салынмышдыр. Орјол шәһәриндә дондурма фабрикинин, 560 тонлуг бузхананын, 45 мин тон картоф, тәрәвәз вә мејвә сахланылмасы үчүн анбарларын тикинтиси баша чатдырылмышдыр. Турш кәләм ихрач етмәјә вә 18 милјон манатлыг халг истеһлакы маллары алмаға башламышыг.

Бунунла белә е'малын мадди-техники базасынын зәифлији чидди нараһатлыг доғурмагдадыр. Икинчи илдир ки, биз јени әт комбинатынын тикинтиси үчүн лајиһә ала билмирик, мөвчуд мүәссисәләрин јенидән гурулмасынын лајиһәләшдирилмәси мәсәләләри ләнк һәлл едилир. Үстәлик, һәмин лајиһәләрдә, бир гајда олараг, дүнәнки технолокија нәзәрдә тутулур. Кичик е'мал сехләри үчүн вә һәтта хүсусән тарла шәраитинә ујғунлашдырылан јемәкханалар үчүн технолоҝи аваданлыг јохдур. Биз баша дүшүрүк ки, бурада чәтинликләр вар, өзү дә аз дејилдир. Лакин истәрдик ки, онлар даһа тез арадан галдырылсын. Бу, бүтүн аграр-сәнаје комплексинин инкишафынын сүр'әтләндирилмәсинә әлавә тәкан верәр.

Дејиләнләрин һамысыны јекунлашдыраркән белә бир суала чаваб вермәк вачибдир: бәс вилајәтдә аграр-сәнаје комплексини јенидән гурмаг саһәсиндә бүтүн бу иш бизә нә вермишдир? Ән әввәл, партијанын Мәркәзи Комитәсинин һазырламыш олдуғу сијаси хәттин дүзкүнлүјүнә, бу хәттин парлаг тәрәфдарларына вә тәблиғатчыларына, илк садә нәтичәләрә инам. Үч ил әрзиндә тахыл истеһсалы 46 фаиз, шәкәр чуғундуру истеһсалы 36 фаиз чохалмыш, јем тәдарүкү исә әслиндә ики дәфә артмышдыр. Һәр јердә јем истеһсалы мүстәгил саһәјә ајрылмыш вә коллектив, ичарә подратына кечирилмишдир ки, бунун сајәсиндә дә һәр шәрти гара мал һесабы илә бизим, демәк олар, 30 сентнер јем вәһидимиз вардыр. Икинчи илдир ки, вилајәт тәшкилатларына һеч кәс јем үчүн мүрачиәт етмир вә бунун нәтичәсидир ки, инди 9 рајон һәр инәкдән сағылан сүдүн мигдарыны 400—500 килограм артырачагдыр, бүтөвлүкдә исә вилајәт үч мин килограмлыг сәвијјәјә јахынлашмышдыр (дөрд ил әрзиндә артым тәгрибән 1.000 килограм олмушдур). Чари илдә пландан әлавә тәгрибән 100 мин тон сүд сатылачагдыр. Үч ил әрзиндә әт сатын алынмасы биздә 30 фаиз, сүд сатын алынмасы исә 27 фаиз артмышдыр. Ән ири беш рајон, 108 колхоз вә совхоз һәр инәкдән 4.000 килограм сүд сағмаг уғрунда мүбаризәјә башламышлар. Доғрусу, әввәлләр биз буну һеч хәјалымыза да кәтирә билмәздик! Бүтүн бунлар кәнд тәсәррүфаты мәһсулу истеһсалы үзрә бешиллијин контрол рәгәмләринә вахтындан ики ил тез чатмаға имкан вермишдир.

Пландан әлавә истеһсал сајәсиндә биз јерли тәчһизат үчүн әт сатышыны 35 фаиз, сүд мәһсуллары сатышыны исә 17 фаиз артыра билмишик. Биздә әһалини сүд вә сүд мәһсуллары илә тә'мин етмәк проблеми принсипчә һәлл олунур. Јағ, пендир, донуз әти, гуш, јумурта дөвләт пәракәндә гијмәтләри илә, колбаса вә мал әти исә комисјон гијмәтләри илә сатылыр.

Ејни заманда вилајәт партија комитәси јахшы баша дүшүр ки, биздә интенсивләшдирмәнин сәвијјәси һәләлик ашағыдыр. Вилајәтин хүсусән тахыл, әт, дикәр кәнд тәсәррүфаты мәһсуллары истеһсалыны артырмагда бөјүк еһтијат мәнбәләри вә имканлары вардыр. Әһалинин мәнзиллә, халг истеһлакы маллары илә, тибб вә мәдәни-мәишәт хидмәти илә тә'мин едилмәси проблеми кәскин проблем олараг галыр.

Бах, буна көрә дә вилајәтин зәһмәткешләри партија МК-сынын, һөкумәтин Гејри-гаратопраг зонаја көстәрдикләри диггәтә вә јардыма көрә онлара үрәкдән миннәтдардырлар. Бу диггәт вә јардым өз имканларымыздан фәал сурәтдә истифадә етмәкдә бизә гүввәт верир. Тәсадүфи дејилдир ки, инди кечирилмәкдә олан партија конфрансларында коммунистләр гаршыларында вилајәтин сакинләри үчүн адамбашына ики тон јарым тахыл, бир тон сүд вә ики сентнер әт истеһсалы сәвијјәсинә чыхмаг вәзифәсини ирәли сүрүрләр. Бу, бизим үчүн бир дә она көрә зәруридир ки, һејвандарлыг мәһсулларынын 60—65 фаизини иттифаг-республика фондуна көндәририк.

Амма, јолдашлар, кәлин, ачыг данышаг. Өмрүмүз боју биз дәфәләрлә санки хиласедичи идејалара кәлиб чыхмышыг. Машын-трактор стансијаларыны ләғв едәндә дә, вилајәт комитәләрини кәнд вә сәнаје комитәләринә бөләндә дә, тәсәррүфатлары вә рајонлары ириләшдирәндә дә, ихтисаслашдырма вә тәмәркүзләшдирмә үстүнә дүшәндә дә, техникаја хидмәтин Богодухов методуну өјрәнәндә дә вә башга һалларда да. Лакин нәзәрәчарпачаг дәјишикликләр јаранмырды. Зәннимчә, һәмин истигамәтләрин һамысынын ән зәиф чәһәти бу иди ки, онлар адамларын мәнафејини нәзәрә алмыр, кәндин һәјат тәрзинә аз тохунурду. Кәндлијә бир нөв дәхли олмајан дәјишикликләр иди вә кәндли дә онлара лагејд јанашыр, ана јолдан елә бил кәнарда јашамагда давам едирди.

Ичарәнин тәтбиг едилмәси, кәндин сосиал симасынын дәјишдирилмәси бу лагејдлијә сон гојур, чүнки зәһмәткешләрин һәјатынын башлыча дајагларына, чәмијјәтимизин бүтүн организмини тәшкил едән чанлы һүчејрәләрә тохунур. Јенидәнгурманын дәфедилмәз күчү, әрзаг проблеминин һәллиндә мүвәффәгијјәтләрин рәһни дә бундадыр.

Анчаг һәр һалда јени принсипләр өзүнә чәтинликлә јол ачыр. Һәр шејдән әввәл тәфәккүр мүһафизәкарлығы мане олур. Инди ичарәјә мүгавимәт ән чох үстөртүлү форма дашыјыр, бир чох һалларда «сосиализмин сафлығы уғрунда» мүбаризә шүары алтында мүгавимәт көстәрилир. Бизә һәтта белә мәктублар көндәрмәјә башламышлар ки, 20 илдән сонра талејиниз нечә олачагдыр?

Јәгин ки, даһа јахшы ишләјәчәк вә јашајачағыг. Инди ајдындыр: интеллектуал потенсиал топланыр, ишини билән кадрлар вардыр, кетмәли олдуғумуз јолу көрүрүк. Она көрә дә хүсусилә ағыр кәлир ки, адамлар, һансыса «гара гүввәләр» бу јолун үстүндә дајаныр вә кәндин дирчәлтмәк вахтынын кәлиб чатдығыны һеч чүр баша дүшә билмирләр. Доғруданмы, нөвбәләр, әрзаг вә сәнаје малларынын гытлығы сосиализмин сафлығыдыр? Адамлары мәһз бу чәһәт даһа чох әсәбиләшдирир, онларын ганыны гаралдыр.

Јени игтисади мүнасибәтләрин өјрәнилиб тәтбиг едилмәсинин јекунларыны гијмәтләндирәркән, буну көрмәк чәтин дејилдир ки, әкәр онлар ајры-ајры адалар шәклиндә тәтбиг едилсә вә адамларын өзәлә енержисинә әсасланса, һеч бир перспективә малик олмајачагдыр. Әкәр илк мүсбәт нәтичәләр бу форманын өзүнүн һесабына әлдә едилә билирсә, кәләчәкдә ону кичик механикләшдирмә васитәләринин, мүтәрәгги технолокијаларын тәтбиг едилмәси, истеһсал мәдәнијјәтинин мүасир сәвијјәси үчүн тә'минат верә биләр, адамларын истираһәт етмәк, тәһсил алмаг имканларына хәләл кәтирмәјән, бу күн гајғысыз јашајан әләбаханлар вә вејилләр үчүн әл јери гојмајан әмәк шәраити јарадылмасы һесабына даһа тез мөһкәмләндирмәк лазымдыр. Инди һәр јени гәсәбәни ичарәјә көтүрүлмүш аилә фермасы илә бирликдә тәһвил вермәк хәтти һәмин проблеми мүәјјән дәрәчәдә һәлл етмәјә имкан верәр.

Лакин ичарәнин бәргәрар олмасы үчүн ишә киришмиш адамлара инам лазымдыр. Ичарә һаггында елә бир ганун лазымдыр ки, о, ичарәдарын, торпагдан мөһкәм јапышан әмәк адамынын үстүнлүк һүгугуну тә'мин етсин. Көркәмли рус игтисадчы-аграрчысы А. В. Чајановун дедији кими, «елә етмәк лазымдыр ки, кәндлинин кәнддән гачмасына әсас олмасын, кәнддә о, гајғысыз јашаја билсин». Амма белә чыхыр ки, биз ичарә подратыны тәтбиг етмәклә ССРИ торпаг ганунверичилији әсасларынын 50-чи маддәсини позуруг. Орада ачыгча дејилир ки, торпағы ичарәјә вермәк гадағандыр. Демәли, ичарәдар потенсиал гануну позучусудур.

Јахуд, белә бир мәсәләни көтүрәк: нормалар, нөвбәләр, еталон трактору, шәрти һектарлар вә саирә ичарәдарын нәјинә лазымдыр? Бүтүн бунлар көһнә мүнасибәтләрин әламәтләридир. Ичарәдара буну билмәк вачибдир ки, истеһсала нә гәдәр пул сәрф етмиш вә мәһсулу һансы гијмәтә сатмышдыр. Бу чүр садәләшдирмә һәм ичарәдарын, һәм дә бүтүн халг тәсәррүфатынын хејриндәдир. «Вышне-Олшански» совхозунун директору С. А. Будаговун бир дәфә дедији кими, ичарә подратына кечдикдән сонра о, тәкчә һесабат үчүн сәрф олунан јарым тон кағыза гәнаәт етмишдир. Зәннимчә, аграр-сәнаје комплексинин инкишафына аид олан бу вә дикәр мәсәләләр Сов.ИКП МК-нын гаршыдакы феврал пленумунун гәрарларында өз әксини тапачагдыр.

Јолдашлар! Кәндин дирчәлдилмәси, ичарә мүнасибәтләринә кечилмәси чох бөјүк сијаси әһәмијјәти олан дөнүшдүр. Јени игтисади сијасәт вә коллективләшдирмә дөврләриндән бәри биз илк дәфәдир ки, базисин, һәјатын өзүнүн тәмәлинин ислаһаты илә мәшғулуг, инсанын торпаға тәбии марағыны дирилдирик. Буну тәкчә тохлуг хатиринә етмәк лазым дејил, һәрчәнд бунун өзү дә вачибдир. Амма кәндлинин дирчәлтмәк, онун һәјатыны сағлам дүшүнчә вә нәчиб мәгсәдләр нуру илә рөвнәгләндирмәк, интеллект вә шәхси тәшәббүскарлыг үчүн она мејдан ачмаг даһа вачибдир. Бизим нәслә мәнсуб коммунистләр әлләриндән кәләни етмәлидирләр ки, бу зирвәјә чата биләк. Анчаг о заман демәк олар ки, јенидәнгурма вә јениләшмә уғрунда мүбаризә мүвәффәгијјәтлә нәтичәләнмишдир. Даһа кери чәкилмәк олмаз, халг буну бизә бағышламаз.

Јолдашлар, ахырда бир сөз дә демәк истәрдим. Дијарымыз бөјүк мәдәни ирси илә зәнкиндир. Бүтүн дүнјада мәшһур јазычылар вә шаирләр, анадан олмасынын 170 иллији јенинчә гејд едилмиш И. С. Туркенев, еләчә дә И. А. Бунин, Н. С. Лесков, А. А. Фет, Л. Н. Андрејев, А. Н. Апухтин, М. М. Пришвин бурада доғулмуш вә ишләмишләр.

Тарихчи Т. Н. Грановскинин, гүтб тәдгигатчысы В. А. Русановун, авиасија конструктору Н. Н. Поликарповун, бәстәкар В. С. Калинниковун, дикәр көркәмли мәдәнијјәт, елм, инчәсәнәт хадимләринин адлары өлкәмиздә кениш мә'лумдур. Онлар бу торпағын нәзәри о гәдәр дә чәлб етмәјән, лакин унудулмаз көзәллијиндән илһам алмышлар. Тәсадүфи дејил ки, И. С. Туркенев јазырды: «Мән бурада оланда раһат нәфәс алырам, асан јазырам, елә бил һава өзү фикирләрлә јоғрулмушдур».

Әзиз јолдашлар, Орјол торпағында, Туркеневин торпағында сизә јахшы фикирләр вә хош әһвал-руһијјә арзулајырам!

Должански рајонундакы «Вышне-Олшански» совхозунун директору **С. А. Будагов** демишдир ки, совхозумуз чохсаһәлидир, Орјол вилајәтиндә, Гејри-гаратопраг зонада беләләри чохдур. Проблемләримиз, бәлаларымыз башдан ашыр. Ишләримизин өһдәсиндән кәлмәк үчүн биз кәнардан онларча механизатор, башга ишчи чәлб етмәли олурдуг. Һејвандарлыгда кадр чатышмазлығы хүсусилә кәскин дујулурду. Ачығыны дејим ки, һәјат өзү мәни ичарә подратынын гаты тәрәфдарына чевирмишдир. Совхозда 10 илдир ки, ишләјирәм. Тәсәррүфаты галдырмаг үчүн бөјүк руһ јүксәклији илә чалышырдыг. Мадди базаны мөһкәмләндирир, әмәјин тәшкили формаларыны дәјишдирирдик, көстәричиләр исә зәиф артырды вә бизи гане етмирди. Совхозун ишинә мүнасибәти нечә дәјишдирмәк, лагејдлијин көкүнү нечә кәсмәк барәсиндә дүшүнмәјә башладыг. Ахы, адәтән һамы өз евиндә јахшы ишләјир. Бир мисал. Совхозумузда М. И. Дорофејев адлы бир нәфәр вар. Шәхси тәсәррүфатында 2 инәк, 3 чошга, 20 тәкнә ары сахлајыр. Һәр инәкдән 6.000 килограм сүд сағыр, картофун мәһсулдарлығы исә һектар һесабы илә 400 сентнер тәшкил едир. Демәк лазымдыр ки, бизим Орјол вилајәтиндә һәтта үзүм вә говун да бечәрир. Белә ки, һәмин адам евиндә ә'ла тәсәррүфатчыдыр, совхозда исә орта сәвијјәли ишчи. Сорушурдуг ки, Михаил Иванович, совхозда нијә пис ишләјирсиниз? Чаваб верирди ки, совхозда ишләмәјә марағы јохдур, чүнки орада 70 манатдан аз, ики јүз манатдан исә чох һагг вермирләр. Она көрә дә биз бүтүн партија тәшкилаты илә бирликдә фикирләшмәјә башладыг ки, адамларымызда нечә мараг ојадаг. Инди, әлбәттә, бу мәсәлә бизим үчүн ајдындыр. Башлычасы ичарәдир. Әминәм ки, садәчә олараг бунун алтернативи јохдур.

Вилајәтимиздә ичарә подраты илә кечән ил јахындан мәшғул олмаға башламышлар. Ишләр ичарә подратына даир вилајәт семинарындан башланды. Вилајәт партија комитәсиндә һәр бир тәсәррүфат рәһбәринин тәһсили курсу, аграр-сәнаје системиндә вә рајон партија комитәсиндә мәшғәләләр тәшкил едилди, имтаһан көтүрүлдү. Ичарә подраты идејасы бизим дә хошумуза кәлди. Партија тәшкилатынын катиби илә бирликдә евләри кәздик. Адамлар тапыб һамысыны инандырдыг. Кечән илин нојабрында һејвандарлыгда дөрд ичарә манғасы тәшкил етдик. Бунун белә сәмәрәли олачағыны һеч өзүм дә көзләмирдим. Ичарә партлајыш далғасы кими бир тә'сир көстәрди. Ичарә манғаларынын ишләдикләри ики ај әрзиндә сүд сағымы бир дәфә јарым, чәки артымы ики дәфә чохалды. Ичарәдарларын мәсрәфләри азалды вә ејни заманда кәлири артды. Бир сөзлә, әјани нүмунәләр ичарә подратынын үстүн олдуғуна башга ишчиләри дә сөзсүз-сөһбәтсиз инандырды. Бу ајлар әрзиндә совхозда, демәк олар, һәр шеј чағлајыр. Она көрә белә олмушдур ки, тәкчә мадди мә'нада јох, мә'нәви мә'нада да шәхси мәнафејә тохунулмушдур. Декабр ајында биз ичарә манғаларыны формалашдырмаг үчүн тәшкилатчылыг иши апардыг. Белә манғаларын үзвләри өзләринә һәмфикирләр тапдылар. Бу илин јанвар ајында бүтүн совхоз ичарә подратына кечмишдир.

Инди совхозда шө'бәләр вә бригадалар әвәзинә 3—7 нәфәрлик 37 ичарә коллективи јарадылмышдыр. Бунларын доггузу аилә коллективидир. Белә коллективләрдә әмәк иштиракы әмсалларыны вә баллары һесабламаға, истираһәт күнләринин вә мә'зунијјәтләрин чәдвәлләрини тәртиб етмәјә еһтијач галмамышдыр. Бу мәсәләләри аилә өзү һәлл едир.

Әлбәттә, јени мүнасибәтләри мәнфи гаршылајанлар да тапылмышдыр. Бунлар механизм тә'мири е'малатханасынын ишчиләридир. Өмүрләри боју мааш алмышлар, иш олду-олмады, онлар үчүн фәрги јох иди, пулларыны истәјирдиләр. Елә ки, бүтүн совхоз подрата кечди вә онлар тәк галдылар, биз һамысыны факт гаршысында гојдуг вә әмәјин өдәнмәсинин јени системини тәклиф етдик. Ахы инди истәр биткичиликдә, истәрсә дә һејвандарлыгда һәр гәпик сајылмалыдыр. Ики ај әзијјәт чәкдиләр, адама 40—50 манат алдылар. Е'малатхананын ишчиләринин сајыны азалтдыг вә мүгавиләләр бағладыг, инди ә'ла ишләјирләр.

Идарә апаратыны гырх нәфәрдән азалдыб он дөрд нәфәрә ендирмишик. Он ики мүтәхәссис биринчи олараг ичарә коллективләринә ишләмәјә кечмишдир, бу мәрһәләдә совхозда идарә ишчиләри бир нөв ичарә манғаларына хидмәт көстәрән кооператив тәшкил едирләр, технолокија, мадди-техники тәчһизат, мәһсул сатышы мәсәләләрини һәлл едирләр. Онларын әмәјинин һаггы кәлирдән ајырмаларын нормативләри васитәсилә өдәнилир. Әввәлләр фермада 5.200 донуза 53 нәфәр бахырдыса, инди 23 ишчи, јахуд 8 ичарә манғасы бу ишин өһдәсиндән кәлир. Донузларын көкәлдилмәси илә дөрд аилә манғасы мәшғул олур. Онларын һәрәси 700—800 баш донуз бәсләјир вә ил әрзиндә 100 тонадәк әт истеһсал едир. Һалбуки әввәлләр һәр белә манғада 5—7 нәфәр ишләјирди вә онлар 25—30 тон әт истеһсал едирдиләр.

Дүнәнәдәк тәсәррүфат кадр сарыдан корлуг чәкирди. Инди исә совхозун сәрбәстләшмиш 60 ишчисиндән даһа јахшы истифадә етмәк үчүн јоллар ахтармаг лазым кәлир. Иашә комбинатынын тикинтисини гуртармаг үзрәјик, јарма дәјирманы, совхоз кәрпич заводу тикирик.

Ичарә коллективләри арасында игтисади мүнасибәтләр олдугча садә вә анлашыглыдыр, алғы-сатгы принсипләри үзәриндә гурулур. Биз ичарәдарлара нә план веририк, нә тәсәррүфат һесабы тапшырыглары, нә дә мәсрәф лимитләри. Онлар анчаг ики көстәричи билирләр: нәзәрдә тутулан гијмәтләр вә план-учот гијмәтләри. Манғалар арасында бүтүн илкин учот вә гаршылыглы һесаблашма чек китабчасына, өзү дә һәр күн вә гәпијинәдәк јазылыр. Тәкчә ишләтдијимиз кағыз тон јарым азалмышдыр.

Ичарәдарлар өзләринин әмәк һаггыны өзләри һесаблајыр вә чәдвәли мүһасибә верирләр. Совхозун бүтүн ишчи категоријалары үчүн әмәк һаггы анчаг нәзәрдә тутулан гијмәтләрлә, мәһсула көрә һесабланыр. Нәзәрдә тутулан гијмәтләрә бирбаша һагг вә бүтүн әлавә һаглар, о чүмләдән 13-чү әмәк һаггы вә иш стажына көрә әлавә һагг дахилдир. Әввәлләр игтисадчылар, мүһасибләр, һәм дә тәсәррүфатын рәһбәри вә баш мүтәхәссисләр вахтларынын јарыдан чохуну анчаг әмәк һаггынын вә әлавә һаггын һесабланмасына сәрф едирдиләр. Кими исә чәзаландырмаг, кими исә мүкафатландырмаг лазым иди. Инди исә биз белә дүшүнүрүк: әкәр сән јүксәк дәрәчәли, тәчрүбәли ишчисәнсә, даһа чох мәһсул истеһсал етмәлисән, онда даһа чох һагг аларсан. Ахы базарда һеч кәс сорушмур ки, мәһсулу һансы ихтисас дәрәчәли ишчи истеһсал етмишдир.

Өлкәмизин мүхтәлиф рајонларындан тәсәррүфатымыза кәләнләр олдугча чохдур. Онлар илк нөвбәдә буну сорушурлар: нә етмисиниз ки, адамларыныз ичарәјә белә чан-башла киришмишләр? Бурада ичарә подратына мүнасибәтин өзү вачибдир. Директорун, игтисадчыларын, мүһасибләрин, мүтәхәссисләрин ишчиләри чағырыб нечә тәшвигат апардыгларыны, он беш—ијирми килограмлыг кағыз галагларыны вәрәгләмәклә нечә инандырмаға чалышдыгларыны көрәндә адамын үрәји ағрыјыр. Онлара изаһ едирләр ки, бах, бу, сизин мәсрәфләр лимитиниздир, бурада исә тәсәррүфат һесабы тапшырыгларыныз гејд едилмишдир. Хаһиш едирик, ичарәјә кечин, гәнаәтә вә тапшырығын артыгламасилә јеринә јетирилмәсинә көрә һагг алын. Буна көрә дә ичарәдар дәрһал јахасыны кәнара чәкир, горхуја дүшүр, фикирләшир ки, мадам кағыз чохдур, демәли, әввәл-ахыр алдадачаглар. Биз исә ичарәдарларын көрүшүнә бирчә вәрәг кағызла кетмиш, өзүмүзү онларын јеринә гојмуш вә анчаг лазыми рәгәмләри јазыб һесабламағы гәрара алмышдыг. Ичарәдар билмәлидир ки, мадди еһтијатлары һансы гијмәтә алачаг вә һазыр мәһсулу һансы гијмәтә сатачаг. Ичарәдар үчүн анчаг бу ики рәгәм вачибдир. Белә оланда билир ки, өмрүндә даһа һеч кәс ону алдатмајачаг.

Бәс ичарә подраты тәсәррүфата нә вермишдир? Мәһсулун үмуми истеһсалы кечән илин мүвафиг дөврүндәкинә нисбәтән 59 фаиз артмыш, 10 ај әрзиндә һәр инәкдән сағылан сүдүн мигдары 640 килограм чохалмышдыр. Үч мин килограм сүд сағылачағыны арзу етдијимиз вахтлар санки о гәдәр дә узаг дејилдир. Амма будур, 10 ај әрзиндә сүд сағымыны 3.500 килограма чатдырмышыг, һејванларын чәки артымы икигат артмышдыр. Плана көрә 400 тон әт сатмалы олдуғумуз һалда, бу ил биз дөвләтә 530 тон әт сатмышыг вә илин ахырынадәк һәлә 100 тон да сатачағыг. Истеһсалын рентабеллији 54 фаизәдәк јүксәлмишдир. Һәр ишчи һесабы илә 16 мин манатлыг мәһсул истеһсал едиләчәкдир. Анчаг һәр һалда, мән адамларын әһвал-руһијјәсиндә, психолокијасында јаранан дәјишиклији башлыча гәләбә сајырам. Адамлар өз ишинин әсл саһибинә чеврилмәкдәдир. Буну көрәндә севинирик. Бу јахынларда јаныма бир мүһарибә ветераны кәлмишди. Деди ки, бахын, ферманы тә'мир етмәк үчүн тахтаны евдән апарырлар. Әкәр евә тахта лазым дејилдисә, ону нијә алмышдылар?

Ичарә кәнддә кениш чәбһә бојунча бәргәрар олмагдадыр. Рајонумузда бүтүн тәсәррүфатлар тамамилә ичарә шәртләри илә ишләјирләр. Бунлар «Зарја мира», «Искра» колхозлары вә «Лугански» совхозудур. Инди ичарәдарлар кәнддә башлыча симадырлар, бүтүн мәсәләләр онларын әтрафында һәлл едилир. Јанварын 1-дән рајонумузда бүтүн ишчиләр ичарә мүнасибәтләри илә бағлы олачаглар. Һәм дә ичарә мүнасибәтләринин мүхтәлиф формаларындан истифадә едиләчәкдир. Рајонда ичарәјә бу илин әввәлләриндә кечәнләр һәтта илбоил габагчыллар сырасында оланлары өтүб кечмишләр. Рајонда бизим совхозда јетишән, һәрәсинин 5 ил стажы олан тәсәррүфат рәһбәрләри варды ки, хәстәлик ады илә вә ја башга бәһанәләрлә иши атыб кетмәк истәјирдиләр. Амма нечә кедәјдиләр? Билдир һәмин тәсәррүфатларда ичарә подратына кечдиләр. Онлар дејирләр: биз һара кедәчәјимизи билмәјиб јеримиздә сајырдыг. Инди исә јолу көрүрүк, асфалт шосејә чыхмышыг. Мәһсулу артырмышлар вә кефләри көкдүр.

Ичарә даһа да ирәлиләјир. Биздә дејирләр ки, ичарә мүнасибәтләринин икинчи дөврәси башланмышдыр. Бу күләр биз ичарәјә торпаг верилмәси шәртилә 25—30 баш инәк сахланылан кичик аилә фермалары јарадылмасыны хаһиш едәнләрдән он бир әризә алмышыг. Биз бу ишә башламыш вә бинаны тикиб гуртармышыг. Ики-үч ај әрзиндә игтисади мүнасибәтләри әмәли сынагдан чыхарачаг вә тәхминән баһардан е'тибарән кениш мигјасда аилә фермалары тикәчәјик.

Аилә фермасы кәндин бүтүн проблемләрини һәлл едир. Биринчиси — ушагларын тәрбијәсидир. Икинчиси — азад инсанын азад әмәјидир. Үч километр узагда олан иш јеринә кетмәк лазым кәлмир, һәр шеј — ев дә, ферма да әл алтындадыр. Јүксәк сәмәрәли технолокијадан, һәтта компүтердән истифадә едилмәклә ишләр јүксәк сәвијјәдә механикләшдирилмишдир. Аилә фермасы гаршысына һәр инәкдән үч мин вә ја үч мин беш јүз килограм дејил, алты-једди мин килограм сүд сағмаг вәзифәсини гојур. Белә ферма инсанын интеллектини тамамилә үзә чыхарачагдыр.

Әмәк, мүһарибә ветеранлары, пенсијачылар ешидәндә ки, совхозун партија тәшкилаты бу јол илә кимсәсиз галмыш, әввәлки перспективсиз кәндләрин һамысыны бәрпа етмәји гәрара алмышдыр, кәлиб тәшәккүрләрини билдирмиш вә демишләр: Гоча олсаг да, көмәјимизи әсиркәмәјәчәјик. Башлы-башына галан тәсәррүфатларын һамысыны бәрпа един. Биз перспективсиз кәндләрин һамысыны бу јол илә бәрпа етмәк фикриндәјик. Онда кәнчләр дә кәндә гајыдарлар. Крымын өзүндән кәләнләр вар. Ики аилә кәлмишдир, ферма көтүрүр вә ишләјәчәкдир.

Ичарә мүнасибәтләриндән данышанда бир совхоз директору кими мәни һәр шејдән чох ичарәјә мүнасибәт нараһат едир. Ичарә игтисади ислаһат демәкдир. Амма ичарәјә игтисадчы кими јанашмырлар. Бајаг да дедим ки, бизә тәчрүбә өјрәнмәјә чохлары кәлир. Һамыны нараһат едән башлыча чәһәт будур ки, ичарәдарларын әмәк һаггы олдугча јүксәкдир. Биз МК-да ичарәдарларла көрүшдә оларкән Ј. С. Стројев чыхыш едиб деди ки, нәзәрдә тутулан гијмәти сечмәклә алимләрин дүзкүн истигамәт вермәсинин вахты кәлиб чатмышдыр. Сонра Белорусијадан совхоз директору данышды, Орјол Вилајәт Партија Комитәси биринчи катибинин суалына белә чаваб верди: Јолдашлар, гәпик давасы етмәјин. Мүшавирәдән сонра она јахынлашыб сорушдум ки, гәпик давасы етмәк нә демәкдир? Чавабында деди: Нәзәрдә тутулан гијмәтләри ким тәртиб етмишдир? — Игтисадчылар. Нечә тәртиб етмишләр? — ССРИ Дөвләт Аграр-Сәнаје Комитәсинин төвсијәси илә.

Әкәр нәзәрдә тутулан гијмәтләр саһәсиндә ССРИ Дөвләт Аграр-Сәнаје Комитәсинин төвсијәләрини әсас көтүрсәк, горхурам даһа һеч вахт ичарә үзү көрмәјәк. Нә үчүн? Она көрә ки, туталым, мүәјјән сәбәбләр үзүндән чәки артымынын һәр сентнеринин маја дәјәри 1.000 манатдыр. Төвсијәләрдә белә тәклиф едилир: 25 фаиз әлавә хәрчләри бундан чыхын, галан дәјәрин һамысы нәзәрдә тутулан гијмәтдир. Јә'ни 25 фаизини чыхын, 750 манатыны исә нәзәрдә тутулан гијмәт һесаб един. Тутаг ки, ичарәдар мүгавилә бағламыш, ики ај ишләмиш вә 40—50 мин манат газанмышдыр. Рәһбәрлик, игтисадчылар бу пулу она вермирләр. Белә оланда о дејәчәкдир ки, јенә алдатдылар вә кәләчәкдә дә алдадачаглар. Мән белә һалларын олдуғуну билирәм вә она көрә дә диггәти буна чәлб етмәк истәјирәм.

Сонрадан ајдын олду ки, белорусијалы директорун тәсәррүфатында ичарәдарлар орта истеһсал көстәричиләри шәраитиндә һәрәјә 28 мин манат газанырлар.

Елә игтисади мүнасибәтләр ишләјиб һазырламаг лазымдыр ки, бунлар ичарәдарын газанмасына да имкан версин, совхоз истеһсалатына да мәнфәәт кәтирсин. Бу мәсәләләри анчаг һәмин јолла һәлл етмәк олар.

Биздә ичарә подраты әсасында иш анчаг бир кәнд тәсәррүфаты илидир ки, кедир. Совхозун бүтүн ишчиләри, коммунистләри әминдирләр ки, бу, индики мәрһәләдә тәсәррүфатчылығын дүзкүн формасыдыр, нәинки тәкчә мәһсул истеһсалыны артырмаға, һәтта өз јериндә һәр адамын ләјагәтини бәргәрар етмәјә имкан верир. Биз һамымыз ичарә подратынын тәтбиг едилмәси саһәсиндә Мәркәзи Комитәнин мәгсәдјөнлү хәттини, вилајәт партија комитәсинин, рајон партија комитәсинин гәтијјәтли ишини дүзкүн һесаб едирик.

Орјол рајонундакы «Красное знамја» колхозу ичарә коллективинин рәһбәри **Ј. В. Алјоничев** өз фикрини бөлүшәрәк демишдир:

Мән колхозда бөјүк мүһәндис ишләјәндә, е'тираф етмәлијәм ки, өз ишимдән о гәдәр дә разы дејилдим, чүнки ишин нәтичәси бир чох чәһәтдән тәкчә мәним өзүм-

(Арды 3-чү сәһифәдә)

КӘНДДӘ СОСИАЛ ИНКИШАФЫ СҮР'ӘТЛӘНДИРМӘЛИ

(Әввәли 2-чи сәһифәдә)

дән асылы дејилди. Ахы, әслинә бахсан, тәчһизатчы ролуну мүһәндисләр јеринә јетирирләр. Техника тә'мири мәнтәгәсинә кәләндә көрүрсән ки, каһ бир еһтијат һиссәси јохдур, каһ да башга еһтијат һиссәси. Белә оланда адамын әһвалы позулурду: билирсән ки, механизаторлар көзләјирләр, һәјәчан кечирирләр. Сәнин исә онлара көмәк етмәјә имканын јохдур.

Вилајәтдә илк ичарә коллективләри мејдана кәләндә мән дүшүндүм ки, бәлкә, буну өзүм дә сынајым. О вахт бу барәдә чох охумуш, ешитмишдим вә башга дүшүрдүм ки, ичарә кәндлини торпағын саһибинә чевирир, әмәјин нәтичәләри биринчи нөвбәдә ичарәдарларын өзүндән асылыдыр. Фикрими механизаторлара данышдым, онлар мәни мүдафиә етдиләр.

Бу илин әввәлиндә биз там нөвбәли әкин системи илә шәкәр чуғундуру бечәрмәк үчүн 9 нәфәрдән ибарәт ичарә коллективи јаратмаг тәклифи илә колхозун идарә һеј'әтинә мүрачиәт етдик. Колхозун идарә һеј'әти, партија тәшкилаты хаһишимизә әмәл етдиләр. Бизә 1.034 һектар әкин саһәси, үмумән 205 мин манатлыг лазыми кәнд тәсәррүфаты техникасы, аваданлыг, башга истеһсал фондлары вердиләр. РАСБ, тәсәррүфатын мүтәхәссисләри лазыми һесабламалар апармагда көмәк етдиләр. Бу һесабламалар үмумән һесаблашма гијмәтләринин мүәјјән едилмәсиндән ибарәт иди. Биз һәмин гијмәтләр әсасында ишләјәчәкдик. Мәним өзүмә вә механизаторлара игтисадијјатын әсасларыны өјрәнмәк лазым кәлди.

Артыг јаза јахын бүтүн техниканы һазырладыг, тарла ишләрини мүтәшәккил кечирдик — ишләрин һамысыны өз гүввәмизлә көрдүк. Өтән күнләрдә һәмишә бу ишә шәһәрдән ән азы 15 механизатор чәлб олунарды.

Ичарә адамларын ишә мүнасибәтини көз габағында дәјишмәјә башлады. Көрүлән ишләрин кејфијјәтинә һеч кәс биканә дејилди. Механизаторлар техникаја гајғы илә јанашмаға башладылар. Бүтүн бунлар мүсбәт нәтичәләр верди. Әмәк кадрларынын, хүсусән механизаторларын һәмишә чатышмадығы тәсәррүфатымызда һәтта ән јахшы илләрдә һәр һектардан чәми 12—13 сентнер тахыл јығылырды. Биз исә елә бу ил һәр һектардан 30 сентнер тахыл көтүрә билмишик. Башга биткиләрин мәһсулдарлығы да артмышдыр.

Бизи севиндирән бир дә одур ки, мәһсул истеһсалына чәкилән хәрчләр азалдылмышдыр. Бир сентнер тахылын маја дәјәри 6 манат, шәкәр чуғундурунун маја дәјәри 2 манат 50 гәпикдир, әмәк мәһсулдарлығы 2 дәфәдән чох артмыш вә коллективин һәр бир үзвү 44 мин манатлыг мәһсул истеһсал етмишдир. Инди биз јәгин етмишик ки, тәсәррүфатын игтисадијјатыны мөһкәмләтмәк јолу мәһз ичарәдир, о, бизи әсл саһибләрә чевирир. Мәһз буна көрә ичарә бизим үчүн инди гысамүддәтли кампанија дејилдир.

1989-чу илдән биз колхозун идарә һеј'әти илә 8 ил мүддәтинә мүгавилә бағламышыг ки, һеч олмаса нөвбәли әкинин там ики силсиләсини баша чатдыраг. Артыг инди торпағын структуруну јахшылашдырмаг үзәриндә ишләмәјә башламышыг, јүксәк кејфијјәтли тохумлар һазырлајырыг.

Ачыг демәлијәм ки, бизим проблемләримиз олмушдур. Мәсәлән, һесаблашма гијмәтләринин тәтбиги заманы белә бир шүбһә доғурду: көрәсән, вариант оптимал сечилмишдирми? Артырылмыш гијмәтләр әләбахымлыг доғура биләрди. Газанылмамыш пуллары алмаға имкан верә биләр, ашағы салынмыш гијмәтләр исә мә'јус едә биләрди, һәтта коллективин дағылмасына кәтириб чыхара биләрди. Биз бунун үзәриндә јахшыча дүшүндүк вә инди бу шүбһәләримиз архада галмышдыр. Мән белә рәгәмләр көстәрә биләрәм. Биздә бир сентнер шәкәр чуғундурунун һесаблашма гијмәти 2 манат 80 гәпикдир, сатыналма гијмәти исә 6 манат 20 гәпик. Әввәлчә бизә елә кәлирди ки, бу, ичарәдарлара сәрфәли дејилдир. Лакин һесаблајанда, өз имканларымызы көтүр-гој едәндә ајдын олду ки, бизим дә јахшы әмәк һаггымыз вә пулумуз вардыр вә бу пулун һесабына колхозу инкишаф етдирмәк, сосиал-мәдәни-мәишәт објектләри тикмәк мүмкүндүр.

Биз даһа ирәли кетдик. Белә гәрар гәбул етдик ки, јени илдән ичарә һаггыны ајырмагла колхоза сатыналма гијмәтләри илә мәһсул сатачағыг. Буну нә үчүн етдик? Она көрә етдик ки, өз мәһсулумузун кејфијјәтинә вә сатышына марағымызы күчләндирәк. Ахы һеч кимдән кизли дејилдир ки, әкәр мән һесаблашма гијмәти илә мәһсулу 5 маната сатырамса, онда мәни колхозун бу мәһсулу һансы гијмәтә: ја 13 маната, ја да 17 маната сатдығы даһа марагландырмыр. Бунун мәним үчүн фәрги јохдур. Инди исә әкәр биз мәһз сатыналма гијмәтләри илә ишләсәк вә ичарә һаггы өдәсәк, онда, үмумән, буна марағымыз артачагдыр. Бу, һәм бизә, һәм дә тәсәррүфатымыза сәрфәли олар.

Кәләчәкдә банкда өз һесабымызы ачмаг фикримиз дә вардыр. Бу нијјәти һәјата кечирмәк үчүн бүтүн истигамәтләрдә өз ишимизи тәкмилләшдирәчәјик. Бизә һәмчинин башга саһәләрин ичарә коллективләри илә мүгавиләләр бағламаг вачибдир. Јери кәлмишкән, демәк лазымдыр ки, һәмин коллективләр инди биздә дә ичарә подраты илә ишләјирләр.

Бизим колхоз «Јүз» програмына дахил едилмишдир. Һәмин програм барәсиндә бурада данышылмышдыр. Бу програм һәјата кечирилдији мүддәтдә тәсәррүфат үчүн чох иш көрмәк, хүсусән сосиал саһәдә чох иш көрмәк мүмкүн олмушдур. 21 мәнзил, тичарәт мәркәзи, ушаг бағчасы тикилмишдир. Инди биз әминик ки, ичарә тәсәррүфатын игтисадијјатыны јүксәлтмәк үчүн јени күчлү такан верәчәкдир. Мәһз буна көрә 1989-чу ил јанварын 1-дән бүтүн колхоз ичарә подраты илә ишләјәчәкдир.

Знаменка рајонундакы «Новаја жизн» колхозунун аилә ичарә подратынын рәһбәри **Ј. С. Знаменскаја** трибунаја галхмышдыр.

О демишдир: Сон вахтлар мәнә тез-тез ејни суалы верирләр: нечә олмушдур ки, мән шәһәр сакининдән дөнүб кәнд ичарәдарына чеврилмишәм? Һәгигәтән, шәһәрдә анадан олмуш вә боја-баша чатмышам. Иншаат техникумуну битирдикдән сонра лајиһә институтунда ишләмишәм. Истираһәт күнләриндә тез-тез кәндә гоһумларымын јанына кедәрдим. Беләликлә, кетдикчә даһа чох орада галыб ишләмәк истәјирдим. 1983-чү илдә гәти гәрар гәбул етдим.

Ачыг демәлијәм ки, сағычы ишләмәјә башладығым илк күнләрдән бөјүк чәтинликләрлә гаршылашдым. Ферма көһнә иди, механикләшдирмә васитәләри јох иди, јем чатышмырды. Күман етмәк оларды ки, там һәчмдә бүтүн ишләри мүстәгил јеринә јетирмәкдәнсә көмәк етмәк чох-чох асандыр. Ачыгашкар тәчрүбә, билик, тәсәррүфатчы мүнасибәти — кәнд әмәкчиләринин әксәријјәтинә хас олан мүнасибәт чатышмырды. Мән бүтүн бунлары Сов.ИКП үзвү олан доғма халам Ивашкова Надежда Тихоновнадан өјрәндим. Бундан әлавә, Орјол Кәнд Тәсәррүфаты Институтуна дахил олдум. Беләликлә, тәдричән бәркијирдим, әлдә етдијим нәтичәләр артырды.

Ачыг демәк лазымдыр ки, һәр инәкдән иллик сүд сағымынын сәвијјәси һәлә ашағы иди. Нечә дејәрләр, сүд инәјин дилиндәдир. Инәјин дилинин үстүнә гојмаға исә һеч нә јох иди. Каһ јем кәтирмирдиләр, каһ јем азлыг едирди, каһ да лазыми кејфијјәтдә олмурду. Буна көрә дә бүтүн әмәјимиз, мән сағычынын әмәјини нәзәрдә тутурам, пуча чыхырды. Биз тез-тез белә бир суал үзәриндә дүшүнүрдүк: нә етмәк лазымдыр ки, һеч кәсдән асылы олмајаг. Вәзијјәтдән чыхыш јолуну һәјат өзү көстәрди: бу јол ичарә иди. Биз буну өз тәчрүбәмиздән јәгин етдик. 1987-чи илдән 6 нәфәрдән ибарәт коллективимиз (һамысы гоһумлардыр) 285 һектар торпаг, үмуми дәјәри 320 мин манат олан 90 инәк, һејвандарлыг биналары, кәнд тәсәррүфаты техникасы вә башга истеһсал фондлары ичарәјә көтүрмүшдүр.

Инди биз тәһким олунмуш саһәдән көтүрдүјүмүз јем илә мал-гараны бүтүнлүклә тә'мин едирик, үстәлик, артыг галан јеми сатырыг.

Һәр инәкдән сүд сағымы 1.500 килограм артмышдыр. Ичарә подратына кечмәздән әввәл фермамызда һәр инәкдән сүд сағымы 2.500 килограмдан артыг олмадығы һалда, чари илдә Бөјүк Октјабр бајрамынадәк һәр инәкдән 4 мин килограм сүд сағмышыг. Ил әрзиндә исә 4.300 килограм сүд сағылачагдыр. 1 сентнер сүдүн маја дәјәри 23 манат олачагдыр ки, бу да ичарә үсулуна кечмәздән әввәл олдуғундан 7 манат аздыр. Әмәк мәһсулдарлығы үчгат артмышдыр. Көзләнилән јекуна көрә, адамбашына 39 мин манатлыг мәһсул истеһсал едиләчәкдир.

Колхозун идарә һеј'әти бизимлә һәр ај сүд үчүн фактик сатыш гијмәтләри үзрә һесаблашыр. Биздә 1 сентнер сүдүн гијмәти орта һесабла 36 манатдыр. Сатдығымыз мәһсулун дәјәриндән әлдә етдијимиз вәсаитин 34 фаизини тәсәррүфата ајырырыг. Јердә галан вәсаит бизим тәсәррүфат һесаблы кәлиримиздир. Ачыг демәлијәм ки, бу чүр гаршылыглы һесаблашмалар системи чох садә вә анлашыглыдыр. Һәр биримиз гәти билир ки, газандығы нә варса, һамысыны алачагдыр.

Еһтијат мәнбәләримиз түкәнмәмишдир. Лакин мөвчуд мал-гаранын кенетик потенсиалы әсасында мәһсулдарлығы бундан сонра да јүксәлтмәк чох чәтиндир. Үмумрусија Колхоз Шурасынын сәдри Васили Александрович Стародубтсев бизә 100 баш дүјә сатмағы вә'д етмишдир. Әкәр о, сөзүнә әмәл едәрсә, биз һәмин дүјәләрдән онун өз комплексиндә әлдә етдијиндән 1.000 килограм чох мәһсул көтүрмәји өһдәмизә алырыг.

Биз һәмчинин сүд е'малыны јериндәчә тәшкил етмәк вә пендир истеһсалы илә мәшғул олмаг нијјәтиндәјик. Бу ишдә аграр-сәнаје комитәсинин көмәјинә бел бағлајырыг.

Мән ичарәдарларын бу јахынларда Сов.ИКП МК-да кечирилмиш Үмумиттифаг мүшавирәсинин иштиракчысы олмушам. Мән мүшавирәдән партијанын јеритдији хәттин дүзкүнлүјүнә дәрин инамла гајытмышам. Мүшавирәдән алдығым тәәссүрат, јени шәраитдә газандығым иш тәчрүбәси мәни инандырыр ки, мәһз ичарә бизә өзүмүзү әсл саһибләр кими һисс етмәк, әмәјин севинчини дујмаг имканы верәчәкдир.

Ичарә коллективинин рәһбәри, Подзаваловски фермасынын мүдири **В. Е. Рајс** демишдир: Уритски рајонундакы Сов.ИКП адына колхоза мән «Комсомолскаја правда» гәзетинин чағырышы илә Газахыстандан кәлмишәм. Бу дијар дәрһал хошума кәлди. Јахшы, гајғыкеш адамлары, јашыл тәпәләри, мешәликләри вар. Чох көзәл јерләрдир.

Колхозумуз Уритски рајонунда ән ири колхозлардан биридир вә јахын кечмишдә ән бәрбад колхозлардан бири иди. Әмәк габилијјәтли адамларын сајы чәми ики ил бундан әввәл 150 нәфәрдән артыг дејилди. Јоллар чәкилмәмишди. Јашамаг үчүн там јарарсыз шәраит һөкм сүрүрдү. Она көрә дә адамлар мүхтәлиф шәһәрләрә вә вилајәтләрә дағылмышдылар, Маликанәләри гангал, кичиткән басмышды.

Подзаваловски фермасында хүсусилә чәтин вәзијјәт јаранмышды. Мәнә бурада ишләмәји тәклиф етдиләр. О вахт фермада беш инәк групуна чәми бир сағычы варды — 58 јашлы Лјубов Ивановна Сопова. Галанлары нарјад үзрә кәнардан кәлиб ишләјирдиләр. Һәр инәкдән илдә орта һесабла 1.850 килограм сүд сағылырды.

Бурада галмыш јерли әһали илә биз тәсәррүфаты, бу бәрбад ферманы абадлашдырмалы идик. Демәлијәм ки, вилајәтин керидә галан вә азрентабелли 100 тәсәррүфатынын јенидән дирчәлдилмәси илә бағлы «Јүз» програмы бөјүк рол ојнады. Јаваш-јаваш да олса е'тибарлы јол чәкилмәјә башланды. Инди бу јол илә Орјола јарым саата кедиб чатмаг олур. Әввәлләр исә ораја кетмәк үчүн бир-ики күн вахт лазым иди. Үч әдәд чохмәнзилли, һабелә ајры-ајры бир аиләлик евләр тикилди. Саһибсиз галмыш кәндли евләри тәзәләнир. Ики ил әрзиндә 90 мәнзил истифадәјә верилмишдир.

Колхозун коллективи даим бөјүјүр, инди бурада 284 нәфәр әмәк габилијјәтли адам вардыр. Өзү дә ишчиләрин јарысы 30 јашынадәк олан кәнчләрдир. Комсомол тәшкилаты бөјүмүшдүр. Мәктәблиләрин сајы 2,5 дәфә артмышдыр. Јери кәлмишкән дејим ки, мән бу тәсәррүфата кәләндә гызым мәктәбин 47-чи шакирди иди. Бу ил Совет Конституцијасы күнү әрәфәсиндә 50 јерлик ә'ла ушаг бағчасы истифадәјә верилмиш вә дәрһал бүтүн јерләр тутулмушдур. Кәләчәкдә клуб, тичарәт мәркәзи, идман комплекси, сонра исә һәм дә мусиги мәктәби тикәчәјик.

Кәндин симасынын дәјишдирилмәси, үстәлик, әмәјин тәшкилинин мүтәрәгги формаларынын вә интенсив технолокијаларын тәтбиг едилмәси тәсәррүфатын игтисадијјатыны мөһкәмләндирмәклә јахындан мәшғул олмаға имкан вермишдир. Өзү дә ичарә аилә подратына хүсуси диггәт јетирилмишдир. Мәсәлән, фермада сабит коллектив јаратмаг, һејванларын сахланмасыны вә јемләнмәсини саһмана салмаг вачиб иди. Биз дә бунунла мәшғул олдуг. Ихтисаслашдырылмыш јемчилик мангасынын јарадылмасы сә'јләримизин сәмәрәсини хүсусилә артырды. Манга елә биринчи ил бүтүн һејванлары јемләрлә там тә'мин етди. Бу, бизим үмумән о гәдәр дә пис олмајан, лакин әввәлләр јемсизликдән әзијјәт чәкән нахырымызын мәһсулдарлығынын еһтијат мәнбәләрини ишә салмаға имкан ачды. 1987-чи илдә үмумән ферма үзрә һәр инәкдән сүд сағымы орта һесабла 2.948 килограма чатмышдыр, инди исә биз 3.600 килограм сәвијјәсинә чыхмагдајыг. Бу, һәлә сон һәдд дејилдир. Кәлән ил дөрд мин һәддинә чатмаг фикриндәјик. Сонра исә һәр инәкдән 5 мин килограм сүд сағмаг уғрунда инадла мүбаризә апарачағыг.

Бунун үчүн хејли еһтијат мәнбәји вардыр. 200 дана һазырланмышдыр. Голштинләшдирмә кедир, јем базасы мөһкәмләндирилир. Мәсәлән, чари илин гышы үчүн һәр шәрти баш мал-гараја 27 сентнер јем ваһиди тәдарүк едилмишдир, гарышыг јемләр бураја дахил дејилдир.

Ичарә подраты вә тәсәррүфат һесабы бизи истеһсал хәрчләрини чидди учота алмаға сөвг етмишдир, чүнки бунлар мәһсулун маја дәјәринә вә бизим әмәк һаггымыза билаваситә тә'сир көстәрир. Әмәји интенсивләшдирмәк вә мүхтәлиф вәзифәләри әвәзчиликлә јеринә јетирмәк шәраитиндә фермада һејвандарларын сајыны 27-дән 17 нәфәрә ендирмәк мүмкүн олмушдур. Биз һесабламышыг ки, ики кечә вә ики күндүз кешикчиси, очагчы, үч чилинкәр, ферма мүдири олмадан да тамамилә ишин өһдәсиндән кәлә биләрик. Јери кәлмишкән дејим ки, ферма мүдири вәзифәсини мән ичра едирәм. Икинөвбәли иш режими тәтбиг етмишик.

Ишин јени шәраитиндә сағымын артмасы илә јанашы бүтүн игтисади көстәричиләр дә хејли јахшылашмышдыр. Фикирләшәндә ки, јахын кечмишдә фермамызда сүдүн һәр сентнеринин маја дәјәри 90 маната чатырды, адамы дәһшәт бүрүјүр. Амма инди биз маја дәјәрини 27 маната салмаға наил олмушуг.

Мәсрәфләри даим һесаблајыр вә тәсәррүфатдахили пуллары хәрчләјирик. Бизә көстәрилән хидмәтләрин вә көндәрилән мадди еһтијатларын һаггыны һәмин пулларла өдәјирик. Илин әввәлиндән бәри бизим шәхси һесабымызда 5 мин манатдан чох еһтијат пул јығылмышдыр. Демәли, ичарә подраты өз конкрет нәтичәләрини вермишдир. Амма наилијјәтләрлә кифајәтләнмәк фикриндә дејилик. Бизчә, нисбәтән кичик коллективләр, о чүмләдән аилә коллективләри индикиндән хејли чох сәмәрә верә биләр. Белә коллективләрдә адамларда мәгсәд бирлији олур. Инди биз башлыча диггәти бу чүр коллективләрә јөнәлтмәк нијјәтиндәјик. Елә инди фермада мал-гара көкәлтмәк үчүн манга јарадылмышдыр. Нөвбәти манга дүјәләрә гуллуг етмәк үчүн јарадылачагдыр.

Ичарә коллективләри тарлаларын вә фермаларын мәһсулдарлығыны јүксәлтмиш, колхозун малијјә вәзијјәтини мөһкәмләндирмишләр. Әввәлләр зәрәрлә ишләјән коллектив инди милјон манатадәк мәнфәәт көтүрмәјә башламышдыр ки, бу да өзүнүмалијјәләшдирмә үсулуна кечмәјә, кредит борчларынын өдәнмәсинә башламаға имкан вермишдир. Мәсәлән, кечән ил дөвләтә 600 мин манат гајтарылмышдыр. Инди даһа 700 мин маната јахын борч гајтарылачагдыр, чүнки әсас мәһсул нөвләринин истеһсалына вә сатышына даир планлар мүвәффәгијјәтлә јеринә јетирилир.

Колхозумуз милли тәркибинә көрә јекчинс дејилдир. Русларла јанашы инди бурада украјналылар, белоруслар, бурјатлар, татарлар, чувашлар, гарачајлылар ишләјирләр. Мән миллијјәтчә алманам. Амма һамымыз бир меһрибан аилә кими јашајыр вә ишләјирик.

Сөһбәтимин ахырында ичарәдарларымызын бә'зи проблемләриндән данышмаја билмирәм. Күчлү, баһалы техниканы сахламаг бизим үчүн сәрфәли дејилдир. Јүнкүл, ејни заманда мәһсулдар тракторлар лазымдыр. Ат гошулан бичин агрегатлары, малалар, котанлар, фәрди сағым апаратлары чохдан унудулмушдур.

Ахырда демәк истәјирәм ки, ичарә подраты кәндимизин кәләчәјидир вә ону һәр васитә илә инкишаф етдириб тәкмилләшдирмәк лазымдыр. Ичарә подраты гыса мүддәтдә мәһсул истеһсалыны хејли артырмаға имкан верәчәкдир.

Тросјаны рајонундакы «Родина» колхозунун «Костјор» кооперативинин рәһбәри **Л. П. Пешехонов** өз чыхышына бу сөзләрлә башламышдыр: 50 ил кәндә јашамыш вә кәнд тәсәррүфатында әввәлләр һәјата кечирилән бүтүн ислаһатларын тә'сирини өз үзәриндә һисс етмиш бир адам кими мән партијамызын аграр сијасәтиндә индики истигамәтләри бәјәнирәм.

Колхоз истеһсалатында 10 јашымдан иштирак едирәм. Тракторчу, комбајнчы, колхозун баш механики, 16 ил колхоз сәдри олмушам. Сон вахтлар кәнд Советинин сәдри идим. Амма торпаг һаггында дүшүнчәләр мәни һеч вахт тәрк етмирди. Колхоз сәдри кими ишләмәјим дә мәнә мә'нәви зөвг вермирди. Мүстәгил олмаг истәјирдим, амма имкан вермирдиләр. Ики оғлум бөјүдүкчә көрүрдүләр ки, сәдрлик ишиндә нечә чәтинликләрлә гаршылашырам. Буна бахмајараг онлар да мүгәддәратларыны кәнд тәсәррүфаты илә бағламағы гәрара алдылар. Оғланларымын һәр икиси, еләчә дә бөјүк оғлум Николајын арвады Тимирјазев академијасыны битирмишләр. Николај академијаны фәргләнмә диплому илә битирмишдир. Һәр үчү бир нечә ил ихтисаслары үзрә ишләдиләр, амма ишләриндән там разы гала билмәдиләр. Бә'зән конкрет шәраит үчүн гәтијјән мәгбул олмајан тә'лиматлар, даими көстәришләр мане олур вә әл-гол ачмаға гојмурду. Горхурдум ки, оғланларымын виҹданла вә јарадычылыгла ишләмәк һәвәси сөнсүн.

Нәһајәт, аиләликчә белә интеллектуал потенсиалымыз олдуғуна, Вәтәнә даһа чох хејир вермәк истәдијимизә көрә мән чохиллик отларын тохумларыны истеһсал етмәк үчүн кооператив јаратмаг фикринә дүшдүјүмү оғланларыма билдирдим. Мәһз белә кооператив јарадылмасы онунла әлагәдардыр ки, чохиллик отларын тохумчулуғу јем базасынын инкишафында зәиф чәһәтдир, һәм дә ки, оғланларым вә кәлиним мүтәхәссисдирләр, чәмәнчи агрономлардыр. Бизим учот апармаға да адамымыз вар. Арвадым игтисадчы мүһасибдир, кишиләримизин һамысы исә кениш профилли механизаторлардыр.

Нијјәтимизин мүзакирәси хејли вахт апарды. Һамымыз һесабламалар апарыр, ишин мүсбәт вә мәнфи чәһәтләрини көтүр-гој едирдик. Нәһајәт, гәрара кәлдик ки, дүзкүн јол сечмишик, башладығымыз иш чидди вә мәс'ул ишдир. Мај ајында 14 нәфәр адам валидејн евинә топлашды ки, бүтөв кәндли аиләсини ишә башласын.

Биз рајонда мүдафиә олундуг, тамамилә баша дүшүлдүк, вилајәт партија комитәсиндә идејамыз бәјәнилди. Она көрә дә кооператив јаратмаға башладыг, адыны да «Костјор» гојдуг. Бизә 530 һектар торпаг ичарәјә верилмәси һаггында «Родина» колхозу илә мүгавилә бағладыг, низамнамәмизи рајон ичраијјә комитәсиндә гејдә алдырдыг, аграр-сәнаје банкында өз һесабымызы ачдырдыг. Вилајәт аграр-сәнаје комитәси бизә сатылмамыш өтрү 3 трактор, 2 автомобил, лазыми техника вә кәнд тәсәррүфаты инвентары дәсти ајырды, тохум, минерал күбрә, һербисид алмагда јардым көстәрди. Торпагларын агрокимјәви мүајинәсиндән сонра саһәләрә лазыми күбрәләр сәпдик, әһәнкләмә иши апардыг, алаг отларына гаршы мүбаризәјә башладыг. 115 һектар сәрбәст торпагда енличәркәли үсулла халис ағјонча, бирдәфәјә вә икидәфәјә бичилән гырмызы јонча, гарајонча, донузајрығы, тонгалоту әкдик. Онлары гыша јахшы вәзијјәтдә чатдырдыг. Бу ишләрин көрүлмәсинә, тохум, трактор вә торпагбечәрән техника алынмасына 150 мин манат хәрчләмишик. Үмумијјәтлә исә аграр-сәнаје банкындан 300—330 мин манат мәбләғиндә ссуда алмаг фикриндәјик. Бу гәдәр пул бизә јығым техникасы, тохумлары чешидләјән вә гурудан техника алмаг үчүн лазымдыр. Биз АДР-дә истеһсал едилән «Е-516» комбајны алырыг. Бу комбајнын иткиси үч фаиздән чох олмур. Әлбәттә, олдугча баһалы комбајндыр. Үмидварыг ки, иткиләри азалтмаг һесабына бу хәрчи бир илә өдәјәчәјик. Бүтүн борчларымызы 1991-чи илдә гајтарыб гуртармаг фикриндәјик.

Фәалијјәтимизи тәкчә чохиллик отларын тохумунун истеһсалы илә мәһдудлашдырмаг фикриндә дејилик. 1989—1990-чы илләрин гышындан е'тибарән чаван гарамал көкәлтмәјә башлајачағыг. Фикримизчә, бу, рајонда ән учуз әт олачагдыр, чүнки әсасән истеһсалымызын әлавә мәһсулундан — гуру отдан, самандан, күләшдән, өз тахылымыздан истифадә едәчәјик. 100—120 ары аиләсиндән ибарәт пәтәк јаратмаға башламышыг, инди 20 ары аиләмиз вардыр. Мүгавиләләр әсасында рајонун тәсәррүфатларына чохиллик мәдәни отлаглар вә бичәнәкләр јарадылмасы саһәсиндә өз күчүмүзлә, өз тохумларымызла хидмәтләр көстәрмәк фикриндәјик. Әлбәттә, ишләримизи көрдүкдән сонра һәмин ишләрин агротехники әсасландырмаларыны гојуб кедәчәјик. Инди техника сахламаг үчүн ангар тикинтисини баша чатдырырыг. Инди о, бизим өзүмүзүндүр, өзү дә олдугча баһадыр.

Әлбәттә, кооперативимиз јаранандан бәри һеч дә һәр иш рәван кетмәмишдир, чүнки бу, тәкчә бизим үчүн јох, башгалары үчүн дә јени ишдир. Бә'зән сырави колхозчулар, тәсәррүфатларын мүтәхәссисләри вә рәһбәрләри тәрәфиндән баша дүшүлмүрдүк. Бир чохлары әввәлчә торпағын ичарәјә верилмәсинин әлејһинә идиләр, һәрчәнд әкинләримизә вә бизим өзүмүзә бөјүк һәсәд вә һөрмәт һисси илә јанашырлар. Торпаг үчүн ичарә һаггы мәсәләси дә чәтинликлә һәлл едилмишдир. Биз әкин саһәсинин һәр һектары үчүн ичарә һаггыны мүәјјәнләшдирмәјин методикасыны тапа билмирдик. Игтисадијјат институтунун төвсијәләринә әсасланан вилајәт аграр-сәнаје комитәси торпағын һәр һектарына 700 манат гијмәт гојулмасында тә'кид көстәрир, ишимизин чох кәлирли олдуғуну бәһанә кәтирирди, һәрчәнд ән јахшы нәтичәләр газанылан 1987-чи илдә колхозун һәр һектардан көтүрдүјү кәлир 320 манат олмушдур.

Кооперативимиз хырда тәсәррүфат олса да әсл тәсәррүфатдыр. Мүвәффәгијјәтлә ишләмәк үчүн бизә чох шеј — тикинти материаллары, јаначаг, метал вә башга материаллар лазымдыр. Бунларын һеч бири сәрбәст сатылмыр. Чох шеји вилајәт тәшкилатларынын көмәји илә әлдә едирик. Буна көрә дә мән тарлачы фәһлә олмаг әвәзинә материаллар тапыб әлдә едән експедитор кими чалышмаға мәчбурам.

Биз ишә чәсарәтлә киришмишик, амма сабаһа там инам бәсләмирик, чүнки ичарә һаггында ганун јохдур. Һәмин ганунда кәнд тәсәррүфаты кооперативләриндән веркн тутулмасы системи, онларын өз үзвләринин сосиал статусу, игтисади мүстәгиллик үчүн, көтүрүлән мәһсулун сәрбәст сатылмасы имканы үчүн тә'минатлар өз әксини тапмалыдыр.

Бу ил сентјабрын 7-дә «Известија» гәзетиндә бизим аиләви шәклимиз вә кооперативимиз һаггында кичик мәгалә дәрч едилдикдән сонра алдығымыз мәктублар арасында Кијев вилајәтиндән Григоренко адлы бириси суал верир: «20 илдән сонра башыныза нә кәләчәјиндән горхмурсунузму?».

Зәннимчә, торпаг үчүн ичарә һаггыны колхоза дејил, дөвләтә өдәмәк мәгсәдәујғун олардын. Бу, ондан өтрүдүр ки, ичарәдарлар һесабына јүксәк мәнфәәт әлдә едилә биләчәји фикри әләбахымлыг әһвал-руһијјәси доғурмасын. Бу, хүсусән она көрә лазымдыр ки, торпаг дөвләт мүлкијјәтидир. Демәли, торпагдан истифадә һаггында ганун да лазымдыр.

Кооперативимиздә әләбахымлыға үмид бәсләмәк үчүн әсас јохдур. Бурада һәр кәс анчаг өз габилијјәтинә, өз билијинә вә әмәјинә бел бағлаја биләр. Гәти әминик ки, бу форманын давамчылары чох олачагдыр. Буну кооперативимизә кәлән мәктублар ахыны вә нүмајәндә һеј'әтләри сүбут едир. Әлбәттә, партија комитәләринин бөјүк, кәркин изаһат иши лазымдыр, мүтәхәссисләрин, хүсусән кифајәт гәдәр билији вә һәвәси олан кәнчләрин ишә киришмәси лазымдыр. Лакин кәнддә јенидәнгурманын мүгәддәраты үчүн мәс'улијјәт алтына кирмәк горхусу һәлә чох күчлүдүр. Буну демәклә, зәннимчә, сирр ачмыш олмарам ки, бәднам һаваjы маашлар мүтәхәссисләрин тәшәббүскарлыг вә зирәклик көстәрмәсинә һеч дә көмәк етмир.

Рус кәндлисинин, әмәкчи адамын, гајғыкеш вә гәнаәтчил тәсәррүфатчынын, өз һәјатыны гурмағы вә башгаларынын да белә һәјат гурмасына көмәк етмәји бачаран тәсәррүфат адамынын руһуну ичарә, анчаг ичарә бәрпа едә биләр.

Тикинтисинә сыфырдан башладығымыз, бош јердә јаратдығымыз базада Максим Фјодорович Фомин адлы 85 јашлы бир гоншумуз вардыр. Биз техника алдығдан, малалары кәтирдикдән сонра о, өмрү боју мүәллимлик етдијинә бахмајараг, һеч бир тәблиғатымыз, һеч бир хаһишимиз олмадан ишә башламышдыр. Бүтүн бу малалары вә механизмләри јербәјер етмиш, бүтүн гајкалары чәкиб бәркитмиш, сонра исә бөјүк оғлума үз тутуб демишдир: «Бир јохла көрәк, бәлкә мән зәиф бәркитмишәм». 85 јашлы гоча көрүн нечә һәвәсә кәлмишдир! Мән ондан соруршурам: «Максим Фјодорович, сизи буна нә вадар едир?». О дејир: «Јенидәнгурмада мән дә һеч олмазса бир гәдәр иштирак етмәк истәјирәм».

Инди биз тикинти илә мәшғулут. 1905-чи илдә анадан олмуш Григори Владимирович адлы икинчи бир јолдаш, демәк олар, һәр күн ишләдијимиз јерә кәлир. Бизә бахыб дејир: «Еһ, ијирмичә ил бундан әввәл олсајды, мәмнунијјәтлә сизә гошулуб ишләјәрдим».

Баша дүшүрсүнүзмү, адамлар бу јенилији нечә гаршылајырлар. Бу, бизим өзүмүзү дә олдугча севиндирир.

* * *

М. С. Горбачов В. И. Ленинин абидәси өнүнә күл-чичәк гојмушдур.

* * *

Һәмин күн М. С. Горбачов, мүшавирәнин дикәр иштиракчылары Орјол рајонундакы Партијанын XXII гурултајы адына колхозда олмуш, Уритски аграр-сәнаје бирлијинин Партијанын XX гурултајы адына колхозунда Мутсановларын ичарә аилә фермасына кетмиш, һәмин бирлијин «За коммунизм» колхозунун партија тәшкилатынын вә идарә һеј'әтинин иши илә таныш олмушлар.

* * *

Орјолун күчәләриндә М. С. Горбачов вилајәт мәркәзинин сакинләри илә көрүшүб сөһбәт етмишдир. Илк көрүш аеропортда олмушдур. «Јантар» саат бирлијинин, трикотаж фабрикинин фәһләләри, иншаатчылар Михаил Серкејевичи дөврәјә алмышлар. Сөһбәт милјонларла адамы дүшүндүрән башлыча мәсәләдән: јенидәнгурманы нечә сүр'әтләндирмәк, XIX партија конфрансынын мүәјјән етдији нә варса, һамысыны там һәчмдә әмәли ишләрә чевирмәк үчүн нә етмәк лазым олдуғундан кетмишдир.

М. С. Горбачов мүсаһибләринин чохлу репликасыны, тәклифини, мүлаһизәсини санки јекунлашдыраraг демишдир:

Јолдашлар, инди конфрансын мүәјјән етдији кими јашамаг лазымдыр. Бу исә о демәкдир ки, разылашдығымыз кими ишләмәк, дүшүнмәк вә сабаһа нәзәр салмаг кәрәкдир. Мә'лум олдуғу кими, биз вачиб мәсәләләр һаггында разылыға кәлмишик.

Сиз өзүнүз көрдүјүнүз вә һисс етдијиниз кими, ислаһат о гәдәр дә асан кетмир. О, бизим һамымыздан дүшүнүбдашынмағы, өзүмүзә башга нәзәрлә бахмағы тәләб етмишдир. Өзүмүзә бахмагдан вә һәр шеји олдуғу кими көрмәкдән горхмаг лазым дејил. Белә дүшүнмәк лазым дејилдир ки, ким исә ишини јенидән гурур, мән исә, куја, ишими артыг јенидән гуруб баша чатдырмышам. Јох, биз һамымыз ишимизи јенидән гурмалыјыг.

М. С. Горбачов вилајәтин партија тәшкилатларында һесабат-сечки кампанијасынын нечә кечдији илә марагланмышдыр. Она чаваб вермишләр:

Мараглы, фәал, ачыг-ашкар, өзүнүтәнгид руһунда, бә'зән исә лап чошғун кечир. Белә бир руһ артыг кечирилмиш олан рајон партија конфрансларына да хасдыр вә о, адамларын фикринчә, һәјатымызын бүтүн саһәләринин ингилаби јолла јенидән гурулмасы үслубуна ујғундур.

М. С. Горбачов. Өлкәдә һәјат маһз белә дә олмалыдыр — бизим һәјатымыз, социалист һәјаты, әмәк һәјаты. Елә һәјат ки, әмәк адамы өзүнү јахшы, инамлы һисс етсин. Сосиализми истисмар етмәјә чан атанлардан, тамаһкарлыг мәгсәди илә она ујғунлашанлардан хилас олмаг лазымдыр. Әмәк коллективләриндә тәсәррүфат һесабы, ислаһат, өзүнүидарә васитәсилә, партија јығынчагларында бах, бу чүр шәраит васитәсилә, Советләрдә сијаси ислаһат васитәсилә биз она наил ола биләрик ки, халг һәр јердә бүтүн ишләри өз әлинә алсын.

Сөһбәтләрдән бириндә М. С. Горбачов әрзаг мәһсуллары илә тәчһизатын нә вәзијјәтдә олдуғу илә марагланмышдыр.

Сәс. Сүд мәһсулларында чатышмазлыг јохдур. Гуш әти, јумурта фасиләсиз көндәрилир.

М. С. Горбачов. Демәли, әрзагла тәчһизат һәр һалда әввәлкиндән јахшыдыр?

Сәс. Чох-чох јахшыдыр.

М. С. Горбачов. Биз мәһз бу мәсәләләри ајырмышыг. Биринчи нөвбәдә әрзаг, сонра мәнзил, маллар вә тәбабәт. Һәр шејдән әввәл, бу проблемләри һәлл етмәк үчүн әсаслы сурәтдә сә'јләримизи артырачағыг. Бу ән чәтинидир. Јери кәлмишкән, мәнзил мәсәләсини көтүрәк. Ахы бир вахт өлкәдә фасиләсиз Орјол үсулуну, сизин тәчрүбәнизи өјрәнир, сиздән нүмунә көтүрүрдүләр...

Сәс. Мәнзил мәсәләсиндә һәләлик чәтинлик вардыр. Бир вахт бизим фасиләсиз үсулумуз варды, сонрадан унудулду.

М. С. Горбачов. Орјолда һәр ил нә гәдәр мәнзил тикирләр?

Сәс. Фасиләсиз Орјол үсулунун гызғын чағында 185 мин квадратметр мәнзил тикилирди. Инди исә 200 мин квадратметр тикмәји планлашдырырыг. Бир вахт 130 минә енмишдир. Инди 200 минәдәк галхырыг.

М. С. Горбачов. Билирсинизми, нә олмушду? Кимсә бу нәтичәјә кәлмишди ки, мәнзилин истифадәјә верилмәси саһәсиндә биз куја јүксәк сәвијјәјә чатмышыг. Әслиндә дә белә иди. Биз мәнзил тикинтисинин һәчминә көрә доғрудан да дүнјада биринчи јери тутурдуг. Сонра исә дајандыг. Бах, дајандығымыз заман чохлары бизи өтүб кечдиләр. Инди сүр'әти артырмаға башламышыг. Елә билирәм, бу бешилликдә биз бир ил гаҗаначаг, беш ил әрзиндә алты илин програмыны өдәјәчәјик. Мигјасымыз вә сүр'әтимиз һазырда беләдир. Тикинтинин бүтүн формаларыны: һәм фәрди, һәм кооператив, һәм јерли, һәм кәнчләр формаларыны... тәтбиг етмишик вә иш ирәлиләмишдир.

Сәс. Бу јахшыдыр. Анчаг кејфијјәти дә јүксәлтмәк лазымдыр.

М. С. Горбачов. Шүбһәсиз. Башга чүр јарамаз. Пис кејфијјәт дә көздән пәрдә асмағын бир нөвүдүр. «Гәлп» шеј инди һеч кәсә кәрәк дејилдир.

Сәс. Михаил Серкејевич, суал вермәк олармы?

М. С. Горбачов. Олар.

Сәс. Достум партија органларында ишләјир. Нә вахт кәлсән, һәмишә ишдә олур, әмәк һаггы исә заводда мәним алдығымдан аздыр. Она бир шеј әлавә едәчәкләрми?

М. С. Горбачов. Амма нә гәдәр сөз-сөһбәт кедир ки, партија ишчиләри куја чох алырлар. Мән сизә дејим: партијаја кәлдикдә, бурада чох шеј дәјишир вә буну сиз өзүнүз партија тәшкилатларындан, рајон комитәләринин фәалијјәтиндән һисс едирсиниз. Инди биз апараты азалдырыг. Сәрбәстләшән вәсаитдән әмәк һаггынын сәвијјәсини јүксәлтмәк үчүн истифадә едиләчәк. О мәгсәдлә ки, ихтисаслы, тәчрүбәли, савадлы адамлары партија ишинә көтүрмәк мүмкүн олсун. Әслинә бахanda, заводларыныздa, тәсәррүфатларынызда сиз елә јән кими.

Бәс билирсинизми, биз нәјә көрә сизин вилајәтә кәлмишик? Она көрә ки, сиз даһа јахшы ишләмәјә башламысыныз, сиздә елә шејләр мејдана чыхыб ки, башгаларыны марагландырыб. Үмумијјәтлә, мәнчә, мәһз о јерләрә кетмәк лазымдыр ки, орада чәтиндир, амма орада адамлар бу чәтинликләрдән чыхырлар, јоллар ахтарырлар. Одур ки, биз көрмәк истәјирик ки, Орјол вилајәтиндә әрзаг мәсәләләриндә нә ишләр көрүлүр.

Сәс. Чох иш көрүлүр, шикајәтләнмәјә әсас јохдур. Кәрәк бундан сонра да белә олсун...

М. С. Горбачов. Белә дә олмалыдыр. Бу бешиллијин сону көрүнмәкдәдир. Нә гәдәр ки, о давам едир, һәр бир вилајәтин, республиканын һәмин мүддәт үчүн гәти тапшырығы вардыр, онларын тапшырығдан әлавә истеһсал едәчәкләринин һамысы исә јерләрдә галачаг. Мәнчә, јахшы принсипдир. Даһа јахшы јашамаг истәјирсәнсә, јахшы да чалыш.

Һәр јердә белә олмалыдыр. Сабит нормативләр, тәсәррүфат һесаблы тапшырыглар олачагдыр, амма бунлардан әлавә истеһсал едәчәјинизин һамысы сизин сәрәнчамыныzда галачаг. Белә дүшүнүлмүшдүр, белә дә олмалыдыр.

Сәс. Доғрудур. Анчаг белә дә лазымдыр...

М. С. Горбачов. Амма нәзәрә алын ки, мәсәләни мәһз бу чүр гојмағымыздан һеч дә һамы разы дејилдир. Бә'зиләри өјрәшибләр ки, мәсәлән, тикинтидә ишин көрүлүб-көрүлмәдијиндән асылы олмајараг нарјад максимум сәвијјәдә бағлансын. Заводларда, башга тәшкилатларда да ејнилә белә олур. Бәс нәглијјатда рәгәмләр нә гәдәр шиширдилир? Белә јашамаг олмаз. О ки галды јенидәнгурма илә мәшғул олмағымыза, бу, һамымыза кәрәкдир, биз өзүмүз-өзүмүзә һөрмәт етмәјә башлајырыг.

Әкәр ишләр јахшы кетмәјә башлајыбса, адамлар да буну өз үзәриндә һисс етмәлидирләр, һисс етмәлидирләр ки, маллар, әрзаг сарыдан вәзијјәт јахшылашыр. Вилајәтдә, республикада ишләр пис кедирсә, зәһмәткешләр буну да һисс етмәлидирләр. Демәли, јығышмаг, фикирләшмәк лазымдыр — нәјә көрә беләдир? Кимдир мүгәссир? Әмәк коллективинин өзүмү, јохса рәисләр еләдир ки, иши апара билмирләр? Әкәр беләдирсә, онлары әвәз етмәк лазымдыр. Хүласә, јолдашлар, бу сизин өз мәсәләнииздир, ону да сиз өзүнүз һәлл етмәлисиниз.

Сәс. Бизим ағлымыза кәлмирди ки, белә бир вәзијјәтә дүшәчәјик.

М. С. Горбачов. Биз һәр шеји едәчәјик ки, белә олсун, чәмијјәтдә адамларын әһвал-руһијјәси јахшы олсун, әкәр адамын рә'ји дәјәрләндирсә, она һөрмәт етсинләр. О јердә ки, адама бәдбәхтлик үз верир, онун һалына ачысынлар вә көмәјинә кәлсинләр. Бах, һәјатда белә олмалыдыр.

Сәс. Кәнчләри, бах, бу руһда тәрбијә етмәк лазымдыр.

М. С. Горбачов. Мән бу јахынларда, комсомолун 70 иллији күнләриндә Зајков јолдашла бирликдә кәнчләрлә көрүшдүм. Сизә демәлијәм ки, кәнчләрә валеһ олдум. Нечә ағыллы чаванлардыр. Һәм дә иш көрмәк истәјирләр вә артыг нә исә көрмәјә башламышлар, башлычасы исә, онлар өз комсомолуну мүдафиә етмишләр. Өз сијаси тәшкилатыны. Мән көрүшләрдән олдугча разыјам. Кәнчләримиз диггәтәлајиг кәнчләрдир.

Үмумијјәтлә, чәмијјәтимиз мә'нәви чәһәтдән сағламлашмаға башламышдыр. Адамларын әһвал-руһијјәси јахшылашыр. Јолдашлар, бу јахшыдыр, бунсуз јенидәнгурма ирәлиләмәз. Адам бу јенидәнгурманы јаратмалыдыр. Әкәр онунла һесаблашмырларса, әкәр о, сөз дејә билмирсә, тәклифләр ирәли сүрә билмирсә, соруша билмирсә, вачиб саjдығы мәсәләни галдыра билмирсә, бу иши нечә көрә биләр? Јенидәнгурма белә кедә билмәз. Онун галиб кәлмәсиндән өтрү исә ашкарлыг, демократија лазымдыр.

Ахы әввәлләр дә бир чох јахшы ишләр башланмышды. Бәс нијә һәмин ишләр кетмәмишдир? Она көрә ки, халгы ишә гошмамышлар. Инди бу тәчрүбә әсасында, нечә дејәрләр, ағылланырыг. Ән башлычасы будур ки, халгымыз һәрәкәтә кәлмиш, даһа тәләбкар олмушдур. Буну алгышламаг лазымдыр. Јенидәнгурманын биринчи мәрһәләсиндә митингләрдә, сөһбәтләрдә бир чох елә һаллар да олурду ки, бә'зән демагоглуг, тәнгидбазлыг өзүнү көстәрирди. Бүтүн бунлар өтүб кечир.

Әвәзиндә бахын, инди партија јығынчагларында да, һәмкарлар иттифагы јығынчагларында да, комсомолда да, әмәк коллективләриндә дә бөјүк мәсәләләр гојулур вә һәм дә гәти гојулур. Бах, бу јахшыдыр! Сизин мәнә нә кими суалларыныз вар?

Г. М. Степанова, вилајәт туризм вә екскурсијалар шурасынын әмәкдашы:

Биздә Түркеневин ады илә бағлы олан јерләр вар вә бунлары тез-тез адамлара көстәририк, инди истәрдим ки, Сиз һәмин јерләрә бахасыныз.

М. С. Горбачов дә'вәт үчүн тәшәккүр етмишдир. О демишдир ки, бизим һамымыз үчүн Туркенев дүнја мигјасында танынан шәхсијјәт кими әзиздир.

Сөһбәтләрин иштиракчылары Михаил Серкејевичә онун Һиндистана гаршыдакы сәфәриндә мүвәффәгијјәт арзуламыш вә дост өлкәнин халгларына салам јетирмәји хаһиш етмишләр.

М. С. Горбачов. Бизим өлкәләримиз мүхтәлифдир. Лакин ејни заманда чох јахындырлар. Руһән, ән'әнәләринә көрә јахындырлар. Бизим мүнасибәтләримиз дә кетдикчә мөһкәмләнир. Биз буна шадыг. Зәннимчә, сәфәр мүнасибәтләримизи даһа да мөһкәмләндирәчәкдир.

Јолдашлар, бизим харичи сијасәтимизә нечә бахырсыныз?

Сәсләр. Дүзкүн сијасәтдир! Бүтүнлүклә бәјәнирик!

* * *

Ахшам вилајәтин бәдии өзфәалијјәт коллективләри мүшавирәнин иштиракчылары үчүн консерт вермишләр.

Ленинградда Азәрбајҹан ССР әдәбијјаты вә инҹәсәнәти күнләри

ДӘРИН ЕҺТИРАМЛА

Бөјүк Ленинин адыны дашыјан шәһәр һәр бир совет адамы үчүн сон дәрәҹә әзиздир. Октјабрын бешијидир. «Бурада [illegible] Ленин Октјабр һәмләләринин [illegible]...». Ингилаб илә [illegible] әлагәсинин бу поетик дүстуру Смолныда даһа конкрет шәкилдә дәрк едилир.

Азәрбајҹан КП МК катиби Р. Ј. Зејналовун башчылыг етдији Азәрбајҹан ССР-ин нүмајәндә һеј'әти Смолны фәввәрәси фонунда уҹалан В. И. Ленинин абидәси өнүнә күл-чичәк гојмушдур. Абшерон күнәшинин һәрарәти илә бәсләнилмиш [illegible].

Илк Совет һөкумәтинин башчысы Смолныда 124 күн [illegible]мышдыр. Бу күнләр онун үчүн сон дәрәҹә кәркин, јениҹә јарадылмыш Совет дөвләтинә рәһбәрликлә әлагәдар ән тә'хирәсалынмаз ишләрлә зәнкин олмушдур. Бурада ичласлар, фәһләләрлә, кәндлиләрлә, әскәрләрлә, матросларла көрүшләр кечирилмиш, [illegible] нин о унудулмаз дөврдә ирәли сүрдүјү фикирләр инди совет ҹәмијјәтинин ингилаби тәрздә јениләшмәси илә, партијанын вә халгын һәјата кечирдикләри јенидәнгурма илә чох һәмаһәнкдир! Смолныда В. И. Ленинин [illegible].

Ленинград Шәһәр Партија Комитәсиндә сөһбәт олмушдур. Сов.ИКП Ленинград Шәһәр Комитәсинин биринҹи катиби А. Н. Керасимов Азәрбајҹан елчиләрини сәмими саламламыш, әдәбијјат вә инҹәсәнәт фестивалынын кечирилмәсиндә онлара бөјүк мүвәффәгијјәтләр арзуламышдыр. [illegible]

Азәрбајҹан КП МК катиби Р. Ј. Зејналов Азәрбајҹан ССР әдәбијјаты вә инҹәсәнәти күнләри [illegible] лика партија тәшкилатынын бүтүн зәһмәткешләринин вердикләри ишләрдән данышмышдыр.

К. С. Станиславски адына Ленинград театр хадимләри сарајында журналистләр үчүн мәтбуат конфрансы олмушдур.

Конфрансда рәсми нүмајәндә һеј'әтинин үзвләри, Азәрбајҹанын мәдәнијјәт усталары иштирак етмишләр.

Ахшам гардашлыг вә сәнәт бајрамы тәнтәнә илә [illegible] ачылмышдыр. [illegible]

Күнләрин иштиракчылары үчүн «Аврора»нын [illegible] — Совет Вәтәнинин ингилаби вә дөјүш шөһрәти абидәси әбәди нөвбә чәкир. Республикамызын нүмајәндәләри онун өнүнә кәлмишләр.

Л. ГОЛДШТЕЈН,
Азәринформун хүсуси мүхбири.

МУСИГИ МӘДӘНИЈЈӘТИМИЗИН ТАРИХИНДӘН

ҮЗЕЈИР ҺАҸЫБӘЈОВ ВӘ ИФАЧЫЛЫГ СӘНӘТИ

Биз, Үзејирбәј Һаҹыбәјову нәинки бөјүк бәстәкар, ејни заманда көркәмли бир мусигишүнас кими дә танıјырыг. Онун истәр Шәрг вә истәрсә дә Азәрбајҹан мусигисинин нәзәри мәсәләләринә аид әсәрләри вә чыхышлары мусигишүнаслыг бахымындан сон дәрәҹә гијмәтлидир. Бәстәкарын шаһ әсәри олан «Азәрбајҹан халг мусигисинин әсаслары» китабы мусиги хәзинәмизин надир инҹисидир.

Азәрбајҹан мусигисинин елә бир саһәси јохдур ки, Үзејирбәјин орада дәсти-хәтти олмамыш олсун. Онун классик муғамлар һаггында, мусиги аләтләри вә хүсусилә ифачылыг сәнәти һаггында дедикләри бизим үчүн сон дәрәҹә мараглыдыр вә тәсадүфи дејилдир ки, биз бу кичик јазымызы бөјүк мусигишүнасын ифачылыг сәнәти һаггындакы гијмәтли фикирләринә һәср етмишик.

Азәрбајҹан халг мусигисинин әсасыны тәшкил едән саһәләрдән бири дә ифачылыг сәнәтидир. Ифачылыг сәнәтинин јаранмасы исә муғам мусигисинин инкишафы илә әлагәдардыр.

Ханәндәләр тәрәфиндән ифа олунан муғамлар Азәрбајҹан халг мусигисинин жанрлары ичәрисиндә хүсуси јер тутур. Муғамат Азәрбајҹан халг мусиги јарадыҹылығынын бүнөврәси вә тәмәл дашыдыр. Гәдим заманлардан бәри Азәрбајҹан халгынын јаратдығы маһнылар, тәснифләр вә ојун һавалары муғамат үзәриндә јаранмышдыр. Мәһз буна көрә дә халгымыз муғамлары чох севир.

Азәрбајҹан мусигиси тарихиндә муғамларын мөвгеји вә әһәмијјәтиндән бәһс едән Үзејирбәј јазмышдыр: «Муғамат кечмиш дөврләрдән бәри Шәргин, хүсусилә Азәрбајҹанын классик мусиги јарадыҹылыг нүмунәси кими танынмышдыр. Муғамат гәдим Шәрг пәрдәләри үзрә гурулараг јүксәк мелодијаја маликдир».

Үзејирбәј Һаҹыбәјов муғаматы јүксәк гијмәтләндирир, онун зәнкин мелодијасында халгын арзу-истәјини, мүбаризәсинин, дүшмәнә нифрәтинин вә кәләҹәјә бөјүк инамынын долғун ифадәсини көрүрдү. Мә'лумдур ки, бөјүк бәстәкар милли операмызын бүнөврәси олан «Лејли вә Меҹнун»у муғамлар үзәриндә гурмушдур. Бу әсәрдә халгымызын тарихи кечмишинин фәлакәтләри муғам үзәриндә тәсвир олунмушдур. Бу әсәр Үзејир Һаҹыбәјовун халг мусигисиндән нечә бөјүк сәнәткарлыгла истифадә етдијини сүбут едир.

Үзејирбәј кәнҹ бәстәкарлара дөнә-дөнә төвсијә едирди ки, Азәрбајҹан мусигисиндә чох бөјүк рол ојнајан ҹанлы муғамлара бөјүк гајғы илә јанашсынлар, онларын өз сәрбәст әһәмијјәтинин итмәсинә јол вермәсинләр.

Үзејирбәј мусигишүнаслыг саһәсинә илк гәдәм гојандан нәинки классик муғамлар һаггында, ејни заманда муғам ифачылары һаггында да өз дәјәрли төвсијәләрини сөјләмиш вә тәнгиди гејдләр белә етмишдир. Муғам ифачыларынын вәзифәләри барәдә өз мүлаһизәләрини сөјләмишдир.

Үзејирбәј әсәр вә чыхышларында муғам мусигисиндән вә бу мусигинин мәшһур ифачыларындан бәһс етмәклә милли мусиги аләтләринин дә унутмамышдыр. О, һәр шејдән әввәл милли мусиги аләтләримизин шаһы олан тара бөјүк гијмәт вермиш, һәтта бу аләти јад тә'сирләрдән мүдафиә етмишдир. О, һәлә 20-ҹи илләрдә јазырды:

«Тар Шәрг мусигиси тәһсилини кенишләндирә билән аләтләрин ән гијмәтлисидир. Тарын сәси чох һәзин, тә'сирли вә мәрданәдир. Аккомпаниатор үчүн ән көзәл, ән зијада истe'мал едилән аләтин биринҹисидир».

Бурада, јери кәлмишкән, үрәк ағрысы илә бир һашијә чыхмаг истәрдим. Чох тәәссүф ки, истәр мусиги ичтимаијјәтимиз, истәрсә дә концерт бирлији вә хүсусилә ансамбл вә оркестрләрә рәһбәрлик едән јолдашлар Үзејирбәјин тар һаггында дедији бу гијмәтли төвсијәләрини унудурлар. Белә ки, сон он илдә бә'зи башабәла «мусигичиләр» тары сырадан чыхардырлар. Кетдикҹә оркестр вә ансамблларда тар кими мүгәддәс бир аләтә сојуг мүнасибәт бәсләјәрәк ону електрокитара илә, каманчаны виоленчел вә скрипка илә, јасты балабаны, гара зурнаны габој вә кларнет илә әвәз едирләр...

Артыг мусиги мәҹлисләриндә, хүсусилә тој шәнликләриндә милли мусиги аләтләринә раст кәлмәк олмур. Чох күлүнҹ вә дәһшәтли һалдыр ки, бу јахынларда бөјүк тарзәнимиз Гурбан Пиримовун вәтәни Күлаблы кәндиндә оларкән орада бир нәфәр тар чалана раст кәлмәдим. Јериндән дуран китара чалыр.

Ханәндә муғамы, тәснифи вә ел маһныларыны китаранын, кларнетин, габојун вә аккордионун мүшајиәти илә охудугда концерт салону мусиги мәҹлисиндән даһа чох ресторана охшајыр. Белә үздәнираг ханәндәләрә нә ад вермәк олар?! Гәрибәдир ки, мүасир тамашачынын зөвгү дә корланмышдыр. Мәҹлисләрдә бу јад аләтләри көрәнләр һеч дә нараһат олмур, фикирләшмирләр: «Һара кедирик биз?! Һаны бизим никбин тарымыз? Һаны бизим кәдәрли каманымыз?».

Биз тар дејәндә јадымыза Шәрг поезијасынын күнәши Мәһәммәд Фүзулинин, Сејид Әзим Ширванинин, Абдулла бәј Асинин, Микајыл Мүшфигин, Сәмәд Вурғунун, Рәһимин мисралары јада дүшүр.

Биз тар дејәндә көзләримиз гаршысында Садыхҹанын, Гурбан Пиримовун, Мирзә Мәнсурун, Бала Мәликовун, Соғомон Сејрановун, Һаҹы Мәммәдовун, Зәриф Гајыбовун, Әнвәр Мәнсуровун вә башга тарзәнләрин үлви сәнәткарлығы ҹанланыр.

Бәс нә үчүн инди тарын, каманчанын, сазын, балабанын сәсини надир һалларда ешидирик? Сәбәби һәр шејдән әввәл одур ки, мусигимиз өз милли көкүндән ајрылмаг просеси гаршысындадыр. Ифачылыг сәнәти алајарымчыг мусигичиләрин, тәсадүфи адамларын әлинә кечмишдир. Јери кәлмишкән, ону да хәбәрдарлыг етмәк истәрдим ки, ашыг мусигисиндә дә өзбашыналыг һөкм сүрмәкдәдир. Гәрибәдир ки, ашыг Әләскәр сәнәтинә әл кездирәнләр дә мејдан сулајырлар.

Бүтүн бунлар һамымызы дүшүндүрдүјү һалда, Үзејирбәјин вәсијјәтләри унудулдуғу һалда, Республика Мәдәнијјәт Назирлијини, Азәрбајҹан Концерт Бирлијини, Бәстәкарлар Иттифагыны, Дөвләт Телевизија вә Радио Верилишләри Комитәсини нараһат етмир. Милли мусиги аләтләримизин сыхышдырылмасына, маһны вә рәгсләримизин тәһриф олунмуш шәкилдә ифасына көз јуммаг олмаз. Әкәр биз индидән бу јад тәзаһүрләрә гаршы мүбаризә апармасаг, буну кәләҹәк нәсилләр бизә һеч ҹүрә бағышламазлар.

Тары мүдафиә едән Үзејирбәј гәдим аләт олан каманчаны да унутмурду. Мә'лумдур ки, каманчанын тарихи тардан гәдимдир. Тәсадүфи дејилдир ки, Үзејирбәј каманчаја јүксәк гијмәт верәрәк јазырды: «Узун сәсли телли мусиги аләтләринин јеканә нүмајәндәси каманчадыр. Каманчада чалынан мусиги, тарда чалынандан сәсчә даһа мүкәммәл вә инсанын сәсинә даһа јахындыр. Каманча мелодик аләтләрдән ән көзәлидир».

Мүасир ансамбл вә оркестр рәһбәрләри каманчаны тәдриҹән сыхышдырырлар. Һалбуки, Үзејирбәј кәләҹәкдә каманчанын оркестрдә биринҹи јер тутаҹағына һеч дә шүбһә етмирди.

Үзејирбәј ифачылыг сәнәтинин инкишафында нәфәсли аләтләрин ролуну да унутмурду. О, муғамларын, хүсусилә минор муғамларын һәзин сәсләнмәси үчүн јасты балабандан истифадә етмәји төвсијә едәрәк дејирди: «Балабан вә јахуд јасты балабанын сәсләри чох һәзин вә кәдәрлидир. Һејф, шәһәр ашыглары бу көзәл аләти тәрк едиб, әвәзиндә мәзмунсуз вә јарашыгсыз олан түтәји чалырлар».

Ифачылыг сәнәти даим Үзејирбәјин диггәт мәркәзиндә олмушдур. О, бәстәкарлыг фәалијјәти илә јанашы, халг мусигисинин бүтүн саһәләри илә јахындан марагланмыш, ханәндә ашыг вә сазәндә дәстәләринин фәалијјәтинә истигамәт вермишдир.

1923-ҹү илдә көркәмли инҹәсәнәт хадими Әбдүррәһимбәј Һагвердијевин тәшәббүсү илә Үзејирбәјин директор олдуғу Азәрбајҹан түрк мусиги мәктәби нәздиндә ифачылыг сәнәтинә вә муғамата дәриндән бәләд олан ханәндә вә тарзәнләрдән ибарәт «Муғамат комисјону» адланан елми шура тәшкил олунмушду. Шураја сәдрлик етмәк Үзејирбәјә тапшырылмышды. Шуранын даими үзвләри Әбдүлбаги Бүлбүлҹан, Ҹаббар Гарјағды оғлу, доктор Исанисјан, Сәлјанлы Ширин, Мирзә Фәрәҹ, Гурбан Пиримов, Мирзә Мәнсур иди. Һәмин комиссијанын катиблији исә 16 јашлы Әфрасијаб Бәдәлбәјлијә һәвалә олунмушду.

Бу муғамат комиссијасы (јә'ни елми шура) мусигимизин бүнөврәси олан муғамларын бә'зи нәзәри мәсәләләрини вә ифачылыг сәнәтинин инкишаф јолларыны дәгигләшдирирди. Бу да сон дәрәҹә әһәмијјәтли бир иш иди. Шүбһәсиз ки, муғамат комиссијасынын иши һәмишә сакит кечмирди. Мүәјјән бир муғамын шө'бә вә һиссәләри вә онлары ифа етмәк гајдалары үстүндә тез-тез мүбаһисәләр кедирди. Бә'зән дә бир муғамы нечә охумаг мәсәләси мүзакирә олунаркән комиссија үзвләри гәти бир фикрә кәлә билмирдиләр. Мәсәлә ҹидди вәзијјәт аланда Үзејирбәј тәмкин вә сәбрлә һәмин мәсәләнин јенидән мүзакирәјә гојулаҹағыны е'лан едәр вә бу ҹидди мүбаһисәјә (бә'зән мүнагишәјә) сон гојмаг үчүн сөзү муғамат комисјонунун ағсаггалы, муғаматчылар арасында ән чох нүфузлу сајылан вә комиссијанын фәхри мүнсифи олан Мирзә Мухтара верәрди. Онун фикри илә һамы разылашарды.

Үзејирбәј классик ханәндәләрин сәнәтинә вә шәхсијјәтинә дә јүксәк гијмәт верәрди. О, һәмишә ханәндә Бүлбүлҹанын, тарзән Садыхҹанын вә ашыг Нәҹәфгулунун адларыны һөрмәтлә чәкәр, Гарјағды оғлу Ҹаббары динләмәкдән дојмазды. Бу исә тәсадүфи дејилди. О, һәлә 13 јашында оланда илк дәфә динләдији ханәндә Гарјағды оғлу Ҹаббар олмушдур. Ҹаббарын сәнәти, хүсусилә онун илк дәфә Меҹнун ролуну мәһарәтлә ојнамасы Үзејирбәји валеһ етмишди. Мәһз буна көрә дә Үзејирбәј бир динләјиҹи кими һәмишә Гарјағды оғлуну динләмәк арзусунда олмушдур. О, чыхышларынын бириндә Ҹаббары тез-тез динләјә билмәдијиндән шикајәтләнәрәк демишдир:

— Көһнә охујанлардан бизим һөрмәтли халг артисти Гарјағды оғлу Ҹаббары чох аз ешидирик. Буна да чох тәәссүф едирик.

Үзејирбәј Шәрг мусигисинин инҹиси олан Сејид Шушинскинин дә сәнәтини јүксәк гијмәтләндирәр вә һәмишә чыхышларында Сејиди орижинал јолу, үслубу олан новатор сәнәткар кими тә'рифләрди. Үзејирбәј бөјүк ханәндәни илк дәфә 1916-ҹы ил 29 апрелдә Тағыјевин театрында верилән тамашада динләмишди. Сонралар Сејид Бакыја кәләндән (1919-ҹу илдә) онунла јахындан сәнәт достлуғу етмишди. Сејид Шушински истәр Тифлис, истәр Шуша, истәрсә дә Бакы опера сәһнәләриндә Үзејирбәјин операларында баш ролларда чыхыш етмишди.

Бөјүк бәстәкар опера сәһнәмизин улдузу олан Бүлбүлүн дә ифачылыг сәнәтинә јүксәк гијмәт вермишди. Үзејирбәј дәфәләрлә е'тираф етмишди ки, «Короғлу» операсыны јазаркән биринҹи нөвбәдә Бүлбүлү нәзәрдә тутмушду. О өз чыхышларында дәфәләрлә Бүлбүлүн сәсинә, сәнәтинә, хүсусилә ифачылыг мәһарәтинә јүксәк гијмәт верәрәк јазмышды: «...Бүлбүлүн үстүнлүјү ондадыр ки, о, һәр шејдән әввәл, ифачылыг мәдәнијјәтинә јијәләнмишдир. Буна көрә дә онун охумағындан ҹамаат разы галыр. Чүнки, дүзкүн вә тә'сирли охујур».

Үзејирбәј классик муғамларын, милли мусиги аләтләринин кешијиндә дурдуғу кими, ифачылыг сәнәтинин инкишаф проблемләри дә ону нараһат едирди. О, инҹәсәнәтин јүксәк инкишафыны истe'дадлы ифачыларда көрүрдү. Бәстәкар јазырды: «Јүксәк бәдии сәнәт јалныз о заман үмумхалг малы ола биләр ки, бу сәнәтин ән көзәл вә ән истe'дадлы ифачылары олсун. Истe'дадлы ифачылар олмадан милли сәнәтин тәмтәраглы инкишафы да ола билмәз».

Үзејирбәј һәр шејдән әввәл, мусигимизин тәмәл дашы олан муғамларын ханәндәләр тәрәфиндән тәһриф едилмәси һалларына гаршы һәмишә кәскин чыхыш етмишдир. О, һәлә 1942-ҹи ил сентјабрын 7-дә Бакыда «Муғамат вә халг маһныларынын ифасы һаггында» елми мә'рузәсиндә бу һагда әтрафлы сөһбәт етмишди. Мә'рузәдә бә'зи муғам ифачыларынын ибтидаилијиндән, сәтһилијиндән вә мусиги елминә е'тинасызлыгдан јахаларыны гуртара билмәмәси көстәрилмәклә, муғаматы корлајанлар, дүзкүн охумајанлар кәскин тәнгид атәшинә тутулурду. Үзејирбәј дејирди: «...Мән дәфәләрлә демишәм ки, кәрәк бизим охујанлар муғаматын гәдрини билсинләр. Елми-тәҹрүби ҹәһәтдән онлары дүзкүн охусунлар. Буну билмәјәнләр ја онун әһәмијјәтини баша дүшмүр, јахуд тәнбәлликдән үрәкләриндә елә од јохдур ки, ону өјрәнсинләр вә јарадыҹылыг фантазијасыны бир аз кенишләндирсинләр. Анҹаг чох тәәссүфләр олсун ки, ел маһныларыны бә'зи сөзләр корлајан кими, муғаматы да бә'зи охујанлар корлајыр».

Доғрудан да, һансы нәғмәни һарада вә кимә охумағын лазым олдуғуну билмәјән, өз сәнәтини һәјатымызын тәләбләри илә ујғунлашдырмағы баҹармајан ханәндәләрә инди дә раст кәлирик. Беләләри мусиги ирсимизә гајғы илә јанашмыр, ону ардыҹыл сурәтдә өјрәнмир, мусиги мәдәнијјәтимизи јүз илләрдән бәри кәтириб бугүнкү тәрәгги дөврүнә чатдыран сәнәткарларын јарадыҹылыг тәҹрүбәсиндән лазымынҹа истифадә етмирләр. Ҹаббар Гарјағды оғлунун, Сејид Шушинскинин, Бүлбүлүн, Зүлфү Адыкөзәловун вә Хан Шушинскинин, М. Мүтәллимовун ифачылыг ирсләри бир даһа көстәрир ки, әсл ханәндә јалныз ифачы дејил, ејни заманда јарадыҹыдыр.

Тәәссүф ки, бизим бир чох ханәндәләримиз сәнәтләрини инкишаф етдирмәјә гәтијјән сә'ј көстәрмирләр. Әксинә, күнү-күндән керiләјир вә динләјиҹиләрин сајы азалыр. Онлары бир сәнәткар кими мусиги мәҹлисләринә дә'вәт етмирләр. Нәтиҹәдә исә сәнәт сахталашыр.

Үзејирбәј муғамлары дүзкүн охуја билмәјән, ону тәһриф едән мүғәнниләрә гаршы амансыз олмушдур. Бу һагда о, чыхышларынын бириндә демишдир: «...Мүғәннинин дә јахшысы вә писи вар. Елә мүғәнниләр вар ки, сәси јохдур, анҹаг зор илә мүғәнни олмаг истәјир. Сәсинә о гәдәр күҹ верир ки, аз галыр бағры чатласын... Ифачылыг техникасына вә бәдии ифаја јијәләнмәмиш һеч бир кәсә охумағы тапшырмаг олмаз».

Тәәссүф ки, Үзејир Һаҹыбәјовун бу ваҹиб вә лазымлы төвсијәләри ифачылыг сәнәтинә башчылыг едән јолдашлар тәрәфиндән унудулмушдур.

Бөјүк бәстәкар концертләрин тез-тез тәшкилинин әлејһинә иди. Ону да дејим ки, индики концертләр Үзејирбәјин дөврүндәки кими дејилдир. Сон илләр филармонијанын сәһнәсиндә вә истәрсә дә башга концерт салонларында сәсләнән ҹејнәнмиш маһнылар, тәснифләр, ејни ше'рләр, ејни гәзәлләр, тәкрар олунан «Секаһ»лар, «Гатар»лар, «Шаһназ»лар тамашачылары ҹана дојдурмушдур. Артыг Азәрбајҹан тамашачысы 20—25 ил бундан әввәлки сәвијјәдә дејилдир. О, өзүнә лајиг мусиги вә охујанлар тәләб едир. Бу тәләб һаглы тәләбдир. Ханәндәләрин концертләрдә тез-тез чыхышы, ајын әксәр күнләри тојларда чығырмасы һәм она өз үзәриндә ишләмәјә, һәм дә сәсинин ҹилаланмасына имкан вермир. Бунун нәтиҹәсиндә хариҹ охујан ким, хоруз кими банлајан ким вә и. а. Мәһз буна көрә дә Үзејирбәј ифачыларын концертләрдә тез-тез чыхышынын әлејһинә олараг јазырды: «Мә'лумдур ки, концертләр тез-тез верилир. Одур ки, концертдә иштирак едән јолдашлар бир о гәдәр һазыр олмурлар. Онун нәтиҹәсиндә бә'зән лазым олан нәтиҹәләр әлдә едилмир. Концертләрдә иштирак едән бәдии коллективләр вә ишин башында дуран јолдашлар өз вәзифәләрини лазыми гәдәр баша дүшмәли вә елә етмәлидирләр ки, верилән концертләр динләјиҹиләри разы салсын, онлара хош кәлсин».

Үзејирбәјин ханәндәләрә гаршы ирады вә тәләби чох иди. Мәһз буна көрә дә 1921—1948-ҹи илләр Үзејирбәјин иҹазәси вә зәманәти олмадан һеч кәс концерт сәһнәләринә вә ефирә бурахылмазды. Инди үзләрдән ираг муғаматы билән дә, билмәјән дә, сәси олан да, олмајан да охумаға ҹан атыр вә бунун үчүн ҹүрбәҹүр долајы јолларла телевизија екранында мејдан сулајыр.

Бөјүк мусигишүнас халг маһныларына хүсуси диггәт јетирирди. О, маһныларын дүзкүн сәсләнмәсинә нәзәр салмагла, ејни заманда, ону бајағылашдырыб дүзкүн охуја билмәјәнләрә гаршы барышмаз иди. Мусигишүнас ејни заманда өзләринә чох јүнкүл јарадыҹылыг јолу сечиб халг маһныларыны садәҹә олараг нотлашдыран, куја јенидән тәртиб едән, даһа доғрусу нәғмәни јенидән «ишләмәјә» мејл едән бәстәкарлары данлајырды. О, халгын малыны өз адына чыхан бәстәкары гынајараг дејирди: «Арамызда чох пис адәт вардыр. Бәстәкар ел маһнысыны көтүрүб, ора-бурасыны дәјишдириб алтында јазыр ки, филанкәсин әсәридир. Бу, јахшы иш дејил».

Гоҹа Шәргин илк бәстәкары Үзејирбәјин ифачылыг сәнәти һаггында јазылары мусигишүнаслыг сәнәтинин надир инҹиләридир. Јахшы оларды, онун бу барәдә дедикләри ајрыҹа китаб шәклиндә чап олуна. Бу һәм мусиги ичтимаијјәтинә, һәм дә кениш охуҹу күтләсинә гијмәтли һәдијјә оларды.

Ф. ШУШИНСКИ.

АЗӘРБАЈҸАН МӘДӘНИЈЈӘТИ ФОНДУНА

Даһи Пикассонун мәшһур «Керника» панносунун франсыз усталары тәрәфиндән чыхарылмыш сурәти Азәрбајҹан Мәдәнијјәт Фондуна верилмишдир. Франсыз полиграфчыларынын өз азәрбајҹанлы һәмкарларына бағышладыглары бу әсәр фондун илдөнүмүнә һәср олунан хејријјә јығынҹағында тәгдим едилмишдир. Јығынҹаг М. Магомајев адына Азәрбајҹан Дөвләт Филармонијасында кечирилмишдир. Г. Гарајев адына Азәрбајҹан камера оркестри, Дөвләт рәгс ансамблы јығынҹағын иштиракчылары гаршысында чыхыш етмишдир. Тамашачылар мәшһур театр вә кино артистләри илә көрүшмүш, пешәкар усталарын вә һәвәскар рәссамларын әсәрләри илә таныш олмуш, халг сәнәткарларынын әсәрләрини алмышлар.

Јығылан вәсаит Әфганыстанда һәлак олмуш бејнәлмиләлчи дөјүшчүләрә Бакыда абидә уҹалдылмасы фондуна вериләҹәкдир.

(Азәринформ).

«ИШЫГ» КӨРҮШӘ КЕДИР

«Ишыг» нәшријјаты бу ил өзүнүн 20 јашыны гејд едәҹәкдир. Өтән мүддәт әрзиндә нәшријјат бир сыра дәјәрли китаблары охуҹуларын сәрәнҹамына вермиш, бурахдығы уғурлу әсәрләрлә рәғбәт газанмышдыр. Јенидәнгурма нәшријјат саһәсиндә дә тәтбиг олунмаға башламышдыр. Нәшријјат бундан сонра өзүнүн тематик планларыны охуҹуларын истәји илә тутаҹагдыр. Бу бахымдан «Ишыг» нәшријјатынын коллективи Шәкидә өзүнүн кәләҹәк тематик планынын мүзакирәсини кечирмишдир.

Көрүш кечәси И. Накам адына шәһәр мәркәзи китабханасында тәшкил олунмушду. Мәҹлиси Шәки Шәһәр Мәдәнијјәт Шө'бәсинин мүдири Һикмәт Әбдүлһәлимов ачмыш, гонаглары топлашанлара тәгдим етмишдир. Нәшријјатын баш редактору Сәфалы Нәзәрли коллективин јени јарадыҹылыг иши барәдә мә'лумат вермишдир, тематик пландан сөһбәт ачмыш, тамашачыларын бир сыра суалларыны ајдынлашдырмышдыр.

«Ишыг» нәшријјатында бурахылмыш «Азәрбајҹан кулинаријасы» китабынын мүәллифи Әһмәдҹабир Әһмәдов, Шәки Китабсеверләр Ҹәмијјәтинин сәдри, филолокија елмләри намизәди Сабир Әфәндијев, Азәрбајҹан ЕА Шәки зона елми базасынын рәһбәри Закирәјјә Әлифадә, шәһәр мәркәзләшдирилмиш китабханалар системинин директору Исмајыл Исмајылов, «Ишыг» нәшријјатында бурахылмыш бир сыра әсәрләрин мүәллифи, публисист Фазил Рәһмансадә, нәшријјатын шө'бә мүдири Елман Әлијев, М. Ф. Ахундов адына Азәрбајҹан Дөвләт Академик Опера вә Балет Театрынын режиссору Әфлатун Не'мәтзадә, Шәкидәки 2 нөмрәли мусиги мәктәбинин директору Нүсрәт Lәтифов, һабелә 2 нөмрәли орта мәктәбин директору Әкрәм Әһмәдов, Шәки Гадынлар Шурасынын сәдри Мәдинә Исмајылова вә башгалары чыхыш едәрәк нәшријјатын фәалијјәти, орада бурахылан китаблар, буклетләрлә бағлы рә'ј вә тәклифләрини, тәнгиди гејдләрини вә арзуларыны билдирмишләр.

Нәшријјатын коллективи илә јерли китабсеверләрин гаршылыглы разылығы әсасында Шәкидә даими охуҹу дајаг мәнтәгәси ачылмышдыр. Ејни заманда нәшријјат Накам адына китабхананы һамилијә көтүрмүшдүр.

Тәрлан ҺӘСӘНОВ.



ХЕЈРИЈЈӘ КЕЧӘСИ

М. Магомајев адына Азәрбајҹан Дөвләт Филармонијасында совет мәдәнијјәт фондунун Азәрбајҹан шө'бәси фәалларынын иштиракы илә хејријјә кечәси кечирилмишдир. Филармонијанын фојесиндә рәссамларын, ел усталарынын ишләриндән тәшкил едилмиш сатыш-сәркиси бөјүк марагла гаршыланмышдыр. Хејријјә концерти мүвәффәгијјәтлә кечмишдир. Әлдә олунан вәсаит мәдәнијјәт фондуна кечирилмишдир. Шәкилдә: Азәрбајҹан ССР ЕА Ријазијјат Институтунун конструктору М. Ибраһимов сатыш-сәркидә өз әл ишләрини нүмајиш етдирир.

Фото М. Шәрифовундур.
(Азәринформ).

ДИПЛОМ ЛАЈИҺӘЛӘРИНИ — ИСТЕҺСАЛАТА

Тәсәррүфат вә мүәссисәләрлә сифариш-мүгавиләләр бағламаг кәләҹәк мүтәхәссисләри тәдгигатчылыг ишинә ҹәлб етмәјә, С. Ағамалы оғлу адына Азәрбајҹан Кәнд Тәсәррүфаты Институтунун гијабичи тәләбәләринин диплом лајиһәләрини истеһсалын еһтијаҹлары илә әлагәләндирмәјә көмәк едәҹәкдир. Бу гәбилдән илк мүгавилә Бәрдә рајонундакы кенерал Һәзи Асланов адына колхозда бағланмышдыр. Тәсәррүфатын механики Рафиг Һәсәнов истеһсалатдан ајрылмадан институтда тәһсил алыр. О, инди тәсәррүфатда кәнд тәсәррүфаты машынларына техники хидмәтин тәшкили лајиһәси үзәриндә ишләјир. Мүгавиләнин шәртләринә көрә институтун мүәллимләри кәләҹәк мүһәндис-механизатора бу саһәдә методики көмәк көстәрир, колхоз исә мадди вә малијјә мәсрәфләрини өз үзәринә көтүрмүшдүр.

Тәдгигатларын јекунлары диплом лајиһәсиндә үмумиләшдириләҹәк, онларын нәтиҹәләри истеһсалата тәтбиг олунаҹагдыр.

Институтун проректору Гурбан Әлијев дејир:

— Бундан сонра бүтүн диплом ишләри вә лајиһәләри мүгавилә-сифаришләрә әсасән, тәсәррүфатларын вә кәнд тәсәррүфаты тәшкилатларынын фактик материаллары үзрә һазырланаҹагдыр. Бу бир дә она көрә чох ваҹибдир ки, институт тәләбәләринин тәгрибән јарысы гијабичиләр — тарла вә ферма әмәкчиләри, кәнд тәсәррүфаты мүәссисәләринин ишчиләридир. Тәләбәләримизин тәдгигатлары арасында мүшаһидәләр вә сынаглар апарылмасы, селексијанын актуал проблемләри үзрә габагҹыл тәсәррүфатларын наилијјәтләринин топланмасы вә тәһлил едилмәси, кәнд тәсәррүфаты мәһсулларынын истеһсалы технолокијасы, статистика, саһәнин игтисадијјаты вә с. мөвзулар вардыр. Ән гијмәтли ишләр истеһсалата тәтбиг олунмаг үчүн төвсијә едиләҹәкдир. Бундан сонра һәр шәнбә вә базар күнләрини гијабичи күнләри е'лан етмәк гәрара алынмышдыр. Јевлахда, Ағдамда, Ләнкәранда, Салјанда, республикамызын дикәр шәһәрләриндә ачылмыш мәсләһәт мәнтәгәләриндә гијабичи тәләбәләр профессор вә мүәллимләрлә көрүшүр, онлардан мәсләһәтләр алырлар.

(Азәринформ).
Кировабад.

ГАЗАХ КИТАБЫ СӘРКИСИ

Нојабрын 14-дә Азәрбајҹан Енсиклопедијасынын бинасында ачылмыш сәркидә Газахыстанын китаб мәһсулларынын кениш панорамы експонентләшдирилмишдир. Гардаш республиканын ири нәшријјатлары — «Газахыстан», «Жалын», «Онер», «Мектеп» вә башга нәшријјатлары илк дәфә олараг өз мәһсулларыны Бакыда нүмајиш етдирирләр. Азәрбајҹан пајтахтында газах китабынын индики сәркиси сентјабр ајында Алма-Атада кечирилмиш Азәрбајҹан китабы експозисијасынын мүгабилиндә тәшкил едилмишдир. Сәркини ики республиканын Дөвләтнәшркомлары дүзәлтмишләр.

Сәркидә тәгрибән 800 адда китаб көстәрилир. Бунлар ичтимаи-сијаси, бәдии, елми әдәбијјат, ушаг вә кәнҹләр әдәбијјаты, инҹәсәнәтә даир китаблар вә албомлар, китаб графикасыдыр.

Газахыстан ССР-дә ил әрзиндә үмуми тиражы 30 милјон нүсхә олан тәгрибән 2,5 мин адда китаб нәшр олунур.

Китаблар беш дилдә — газах, рус, алман, ујғур вә корејa дилләриндә чап едилир. Кичик китаблар, јарашыглы төһфә нәшрләри сәркијә кәләнләрин диггәтини ҹәлб едир. Һәмин нәшрләрин бә'зиләри кибрит гутусундан да кичикдир.

Газах дилиндә бурахылмыш Азәрбајҹан әдәбијјаты ајрыҹа стенддә тәгдим едилир. Бурада Низаминин, Р. Рзанын, Елчинин, Ч. Һүсејновун әсәрләри гојулмушдур. Сәркинин тәшкилатчылары нәинки өзләринин китаб нәшри мәһсулларыны көстәрмәк, һәм дә Газахыстанда јашајан азәрбајҹанлылардан өтрү Азәрбајҹан дилиндә әдәбијјат алмаг нијјәтиндәдирләр. Сәркинин Бакыда көстәриләҹәји күнләрдә Алма-Атада Азәрбајҹан китабы бајрамы кечириләҹәкдир.

Газах китабы сәркиси нојабрын 20-дәк давам едәҹәкдир. Сонра исә експозисија Азәрбајҹан ССР Дөвләтнәшркомуна һәдијјә едиләҹәкдир.

(Азәринформ).

Редактор Ј. КӘРИМОВ.

Азәрбајҹан ЛКГИ МК бүросунун үзвләри, «Азәрбајҹан кәнҹләри», «Молодјож Азербајджана», «Азәрбајҹан пионери» — «Пионер Азербајджана» гәзетләринин, «Кәнҹлик» — «Молодост», «Улдуз», «Пионер», «Көјәрчин» журналларынын коллективләри иш јолдашлары Јусиф КӘРИМОВА, анасы

ЛАЛӘ ӘЛИ ГЫЗЫНЫН

вәфаты мүнасибәтилә дәрин һүзнлә башсағлығы верирләр.

РЕДАКСИЈАНЫН ВӘ МӘТБӘӘНИН ҮНВАНЫ: 370146, БАКЫ—146, МӘТБУАТ ПРОСПЕКТИ, 529-ҹу МӘҺӘЛЛӘ.
Редаксија VIII мәртәбәдә јерләшир.
ТЕЛЕФОНЛАР: Редактор—32-12-65; редактор муавини—32-12-46; мәс'ул катиб—32-60-95; шө'бәләр; комсомол һәјаты вә әмәкчи кәнҹләр—32-19-27; тәблиғат вә коммунист тәрбијәси—32-60-62; елм вә тәдрис мүәссисәләри—32-19-09; јарадыҹы кәнҹлик вә естетик тәрбијә—32-19-08; мәктублар—32-29-11; бөлмәләр: бәдән тәрбијәси, идман вә күтләви мүдафиә ишләри—32-60-62; комсомол прожектору—32-60-62; коррректор—32-19-21; фотолабораторија—32-60-66; мә'лумат үчүн—38-53-69; мүһасибат—32-79-44; е'ланлар—38-53-63.
П 1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 М 1 2 3 4 5 6 7 8 БАКЫ, «КОММУНИСТ» НӘШРИЈЈАТЫНЫН МӘТБӘӘСИ. БАКУ, ТИПОГРАФИЯ ИЗДАТЕЛЬСТВА «КОММУНИСТ». ФС 31096 Сифариш 8913